

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Qarabağda antiterror tədbirlərinin başlanmasına 5 gün qalırdı...



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
14 sentyabr 2024-cü il, şənbə
№ 168 (6754)
Qiyməti 60 qəpik

# Türk dünyası əlifba birliyinə doğru...



Bax səh. 2

# Xarici tərəfdaşlarımızın sayı artır

Bax səh. 3

# Bakı dünyanın diqqət mərkəzində...




Bax səh. 3

## Ermənistanın mina terroruna qarşı...

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. 2020-ci ilin noyabr ayından indiyədək 379 nəfər mülki şəxs mina qurbanı olub. Onlardan 70 nəfər həyatını itirib, 309 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Əksər hallarda minaların qurbanları mülki əhali olur.

Bu fakt göstərir ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarında işğal dövründə basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir. Ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə...

Bax səh. 3

## Manatın məzənnəsi 2029-cu ilə kimi sabit qalacaq

"The Economist Group" araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"in (ETU) bu günlərdə açıqladığı məlumatda Azərbaycanın maliyyə sabitliyi ilə bağlı müsbət məqamlar yer alıb. Tədqiqat qrupu, ölkəmizin maliyyə dayanıqlılığının möhkəmlənməsində suveren yığım mənbələrinin artmasını, tədiyyə balansının cari vəziyyətinin əlverişliliyini əsas amillərdən biri kimi xarakterizə edir. Proqnozda Azərbaycan manatının sabitliyinə də diqqət yetirilir və qeyd edilir ki, Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarına nisbətdə sabit məzənnə rejimi tətbiq edir. Manatın proqnozu sabitdir və bu, böyük həcmdə cari əməliyyatlar hesabında müsbət saldo ilə dəstəklənir. EIU hesab edir ki, AMB-nin 2024-2028-ci illərdə əsas siyasət...

Bax səh. 4

## Parisdən növbəti absurd iddia...

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistana havadarlıq edən beynəlxalq dairələri ciddi narahat edir. Bu baxımdan, xüsusilə Fransa öndə gedir. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir. Bu ölkə əsassız olaraq ölkəmizin imicinə zərbə vurmağa çalışır. Rəsmi Parisin öz vətəndaşlarına Azərbaycana səyahət etmək xəbərdarlığı da bunun daha bir göstəricisidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək ölkəmizə dair açıqladığı sərt səyahət xəbərdarlığı ən azı təəssüf doğurur.

Azərbaycan Fransa vətəndaşlarının hansı səbəblərdən saxlanıldığını rəsmi səviyyədə bəyan edib. Lakin Paris məsələyə qərəz prizmasından yanaşmaqda davam edir. Rəsmi Bakının bəyan etdiyi kimi, Fransa tərəfindən...

Bax səh. 5

## Tarixdə ilk dəfə...

XXI əsrin ikinci onilliyi qlobal müstəvidə kataklizmlərlə yadda qaldı. Uzun müddət davam edən pandemiya bəlası, siyasi gərginliklər, Avropanın mərkəzində başlayan müharibə beynəlxalq münasibətlər sisteminə özünün mənfi təzahürləri ilə təsir etdi - xüsusilə, illərdir özünü dünya siyasətinin qrandı hesab edən "köhnə qitə"nin bu gərginlikləri idarə edə bilməməsi, baş verənlərin qarşısında acizliyi ön plana sıçradı. Bir sıra siyasi müttəxəssislər Avropanın siyasi çöküşünün post-Merkel dövründən, daha doğrusu, Fransanın "köhnə qitə"nin lideri vəzifəsinə qeyri-rəsmi "yerləşməsindən" başladığını iddia edir. Amma həqiqət budur ki, yaşadığımız əsrin başlanğıcından etibarən ABŞ-ın start verdiyi vahid qütb olmaq planında müəyyən bir müddətdən sonra Avropa da istisna olunurdu - gedişat və proseslər bunu deməyə əsas verir. Xüsusilə, Vaşinqtonun Avropada müharibənin bitməməsi üçün bütün gücünü səfərbər etməsi, öz avropalı müttəfiqlərini enerji böhranı, iqtisadi krizislə üz-üzə...

Bax səh. 7

## Avropa İttifaqının demokratiyaya hücum planı...



Bax səh. 6

## "Maliyyə yardımı"nın bölgəyə gətirdiyi bəla..



Bax səh. 6

## İslam ölkələri arasında sərhədlər ləğv olunur?




Bax səh. 7

# Qarabağda antiterror tədbirlərinin başlanmasına 5 gün qalırdı...

...Sentyabrın 13-ü saat 21:35-dən sentyabrın 14-ü saat 00:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı və Tovuzqala rayonunun Mosesqex yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Mollabayramlı və Tovuz rayonunun Ağdam yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

Bundan başqa, sentyabrın 14-ü saat 00:05 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

***

...Sentyabrın 14-ü saat 13:45 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Dərə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Daryurd yaşayış məntəqəsi istiqamətindəki mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

...Sentyabrın 14-ü saat 14:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Xaçik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətindəki mövqeləri atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən verilən məlumata görə, Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

...Sentyabrın 14-ü saat 19:35-də Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Zamanlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

Bundan başqa, saat 19:05-dən 19:25-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.



***

...Xocalı, Xankəndi, Xocavənd və Qarabağ bölgəsinin Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan digər rayonlarından olan məcburi köçkünlər dünya ictimaiyyətinə müraciət ünvanlayıblar.

"Dünya ictimaiyyətinə çağırış edirik ki, Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı addımlara son qoymağı tələb etsin, bizim öz evimizə qayıtmaq hüququmuz təmin olunsun!",-deyə müraciətdə vurğulanıb.

# Türk dünyası əlifba birliyinə doğru...

## Akademik Nizami Cəfərov: Ümumi türk əlifbası bütün türk dillərinə aid işarələri əks etdirəcək. Müstəqil türk dillərinə heç bir qüvvə müdaxilə edə bilməz

XXI əsr Türk əsridir. Bu günlərdə türk dünyasının inkişafı istiqamətində daha bir mühüm addım atılıb. Uzun zamandır müzakirələri aparılan Ortaq Türk Əlifbası razılaşdırılıb. Belə bir razılaşma sentyabrın 9-dan 11-dək Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclasında əldə olunub. Bu barədə Beynəlxalq Türk Akademiyasının və Türk Dil Qurumunun Ortaq Türk Əlifbasına dair mətbuata birgə açıqlamasında bildirilib.

Qeyd edilib ki, Türk Dövlətləri Təşkilatı tərəfindən təsis olunmuş Türk Dünyası Ortaq Əlifba Komissiyasının üzvlərinin iştirakı ilə keçirilən bu önəmli iclasın əsas məqsədi bu sahədə əldə edilən bilik və təcrübələrin paylaşılması və Komissiyanın ikiillik təcrübəsinə əsaslanaraq Türk dilləri üçün ortaq əlifba layihəsi üzərində işlərin yekunlaşdırılması idi.

İclasda öncə 1991-ci ildə alimlər tərəfindən təklif olunan latın əsaslı Ortaq Türk Əlifbası layihəsi hərtərəfli şəkildə nəzərdən keçirilib. Komissiya üzvləri geniş müzakirələr apararaq bu layihədə diqqət yetirilməsi gərəkli olan məqamları müəyyənləşdiriblər.

Müzakirələr nəticəsində Ortaq Türk Əlifbası üzərində ümumi razılıq əldə olunub. Əlifbadakı hər bir hərfin Türk dillərində mövcud olan müxtəlif fonemləri əks etdirməsinə xüsusi diqqət edilib.



## Türk dünyasının siyasi təsisatlanması

Türk dünyası böyük və son dərəcə əlverişli coğrafiyadır, böyük iqtisadiyyatdır, zəngin resurslardır, artan əhalidir. Eyni zamanda, bu coğrafiyanı ortaq tarixdən gələn zəngin ənənələr, etiqad eyniliyi, dil, məişət, mental dəyərlər oxşarlığı birləşdirir. Elə bu kimi cəhətlərə görə də dünyadakı imperialist güc mərkəzləri türk dünyasına qarşı qısqanclıqla yanaşaraq müxtəlif məkrli ssenarilər hazırlayıblar. Bu ssenarilərdən biri də coğrafiyanın parçalanması idi. Bu plan keçmiş SSRİ dönəmində mərkəzi hakimiyyətin Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi ilə baş tutdu. Burada əlbəttə ki, maraqlı Qərb dairələrinin razılaşmaları da mühüm rol oynadı. Bununla belə, türk xalqları və dövlətləri hər nə qədər bir-birindən ayrı düşsələr də, onlar tarixi, bir kökdən boy atan ağacın qol-budaqları olduqlarını heç vaxt unutmadılar, hər kəs türk kimliyinə sonsuz rəğbətini və birlik sevdasını qəlbinin dərinliklərində yaşatdı.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində keçmiş İttifaqın süqut etməsi ilə bəhs olunan coğrafiyada Azərbaycan və Xəzərin digər sahillərində - Mərkəzi Asiyada müstəqil türk dövlətləri quruldu. Artıq onların bir-birləri və bütün türk dünyasının inam yeri olan Türkiyə ilə inteqrasiyasını əngəlləyən qadağalar aradan qalxdı, türk birliyinin siyasi təsisatlanması üçün tarixi imkan yarandı və bu imkandan istifadə olundu. Diqqəti çəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, sıx birliyin təmin olunmasına həm dövlətlər güclü siyasi iradə ortaya qoyurlar, həm də cəmiyyətlərdə buna qarşısıalınmaz istək var.

Beləliklə, ümumi istək əsasında siyasi təsisatlanmaya start verildi. TDT-nin yaranmasına aparan yol Naxçıvandan başlayıb. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib. 12 noyabr 2021-ci il tarixində TDT-nin 8-ci Zirvə Görüşü çərçivəsində təşkilatın adı TDƏŞ-dən TDT-yə dəyişdirilib. Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv və üç müşahidəçi ölkə var. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. Altı Türk dövlətindən beşi bu təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan da müşahidəçi qismində təşkilata qoşulub və təşkilatın Macarıstanda da ofisi fəaliyyət göstərir. 2022-ci ildə isə Şimali Kipr Türk Respublikası (ŞKTR) müşahidəçi statusunda quruma daxil olub.

Əslində, dünyanın hazırkı mənzərəsi fonunda Türk dövlətlərinin bir çətir altında birləşmələri tarixi zərurətə çevrilmişdi, desək, yanılmarıq. Məlumdur ki, hazırda beynəlxalq səviyyədə qütbləşmə meylləri güclənib. Nə qədər qəribə görünsə də, XXI əsrdə multikulturalizm ideyaları bir sıra hallarda inkar edilir, millətçilik, irqçilik, etiqad fərqliliyi önə çəkilir. Hazırda dünyanın ayrı-ayrı regionlarında İslamofobiyanın genişlənməsini izləmək acı təəssüf hissi doğurur. Biz Global güc mərkəzlərinin selektiv siyasət apardıqlarını, eyni məsələlərə fərqli yanaşmalar sərgilədiklərinin şahidi oluruq. Açıq demək lazımdır ki, ikili yanaşmalardan həm də türkdilli dövlətlər əziyyət çəkirlər, bir sıra hallarda onlara qarşı açıq-aşkar təzyiq cəhdləri göstərilir. Belə bir şəraitdə türk dövlətlərinin hansısa saxta, keçici maraqlara deyil, məhz soy-kökdən gələn yaxınlığa istinad etməklə potensiallarını və fəaliyyətlərini əlaqələndirmələri bir zərurət kimi çıxış edirdi. TDT-nin yaranması geniş türk coğrafiyası ilə dünyadakı ayrı-ayrı güc mərkəzləri arasında qüvvələr balansının tarazlaşdırılmasına geniş imkanlar açır. TDT-nin ən mühüm missiyalarından biri məhz budur. Bu gün TDT dünya miqyasında yeni güc mərkəzi qismində çıxış edir. Qeyd etdiyimiz kimi, türk birliyinin əsası qoyularkən xoş məram əsas götürülüb. Bu qurumun hansısa bir qara niyyəti, təcavüzkarlıq, nifaq yaratmaq, imperialist siyasət aparmaq məqsədi yoxdur. Təbii ki, milli maraqlarını təmin etmək, müxtəlif mərkəzlərdən gələn ekspansionist cəhdlərin qarşısını almaq da türk dövlətlərinin haqqıdır. Qurum burada cəmləşən ölkələr arasında əlaqələri gücləndirmək istiqamətində müxtəlif fəaliyyətlər həyata keçirdiyi kimi, digər ölkələrlə və beynəlxalq təşkilatlarla inteqrasiyanın dərinləşdirilməsinə açıqdır. Əlbəttə ki, paritet əsaslarla, qarşılıqlı maraqların təmin edilməsi yolu ilə.

## Ortaq əlifbadan istifadə heç bir çətinlik yaratmayacaq

Türk Dövlətləri Təşkilatının yaradılmasında əsas məqsəd oxşar tarixi-mədəni irsə, ortaq milli-mənəvi dəyərlərə, məişət tərzinə malik olan xalqların birliyini gücləndirmək, siyasi, ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional ümumtürk platformasının yaradılması olub. Qurumun fəaliyyət istiqamətləri siyasi dialoq, turizm, iqtisadiyyat, ticarət, gömrük, nəqliyyat, təhsil, gənclər və idman, kənd təsərrüfatı, ədliyyə, miqrasiya, informasiya və s. sahələri əhatə edir.




Təbii ki, qarşıda duran ən mühüm vəzifələrdən biri türk dövlətləri və xalqları arasında mədəni inteqrasiyanın dərinləşdirilməsidir. Ortaq əlifbanın razılaşdırılması bu istiqamətdə atılan çox mühüm addımdır. Layihə razılaşdırılanadək gərgin, lakin kifayət qədər səmərəli müzakirələr aparılıb. Qeyd olunduğu kimi, ortaq əlifbanın yaradılması ilə bağlı təklif ilk dəfə 1991-ci ildə irəli sürülüb və son iki ildə ayrı-ayrı türk dövlətlərin alimlərinin yer aldığı müvafiq komissiya gərgin araşdırmalar və təhlillər nəticəsində hamı tərəfindən məqbul sayılan variantın ərsəyə gəlməsinə nail olub. Xatırladaq ki, 2022-ci ilin oktyabrında Türkiyənin Bursa şəhərində keçirilən müvafiq seminarda Türk Dünyası Ortaq Əlifba Komissiyasının yaradılması qərarı Türk Dövlətləri Təşkilatına təqdim edilib. Həmin vaxtdan etibarən alimlərin fədakar çalışmalarının bəhrəsi olan Ortaq Türk Əlifbasında 34 hərf yer alır. Əlbəttə, Türk dilləri hər nə qədər yaxın olsalar da, onlar arasında fərqliliklər də yox deyil. Ayrı-ayrı dillərdə eyni olmayan səslər var. Əlifba yaradılarkən əsas çətinlik də uzlaşmanın təmin edilməsi olub. Ortaq əlifbanın əsas konsepsiyası isə onun latın qrafikası əsasında qurulmasıdır. Müstəqillik əldə etdikdən sonra ayrı-ayrı türk dövlətləri, o cümlədən də Azərbaycan latın əlifbasına keçid ediblər. Buna görə də Ortaq Türk Əlifbasından istifadə heç bir çətinlik yaratmayacaq.

## Bütün dillərin fərqli xüsusiyyətləri nəzərə alınıb

Şübhə yoxdur ki, ortaq əlifbaya keçid Türk xalqları arasında mədəni əlaqələrin dərinləşməsinə öz müsbət təsirini göstərəcək. Bu, inteqrasiya yolunda çox mühüm addım olacaq. Türk Dünyası Ortaq Əlifba Komissiyasının üzvü, akademik Nizami Cəfərov "Yeni Azərbaycan"a Ortaq Türk Əlifbası ilə bağlı fikirlərini bölüşüb. Əlifbada bütün türk dillərinin fərqli xüsusiyyətlərinin də nəzərə alındığını deyən akademik vurğulayıb: "Müstəqil türk dövlətlərinin ortaq əlifbasını hazırladıq, son toplantı keçirildi. Ümumi Ortaq Türk Əlifbasının yaradılması ilə bağlı müstəqil türk dövlətlərinin alimləri toplandı. Hər bir hərfi müzakirə etdik. Hər bir hərfin Türk dillərində eyni səsi bildirməsini uyğunlaşdırdıq. Beləliklə, 34 hərfdən ibarət əlifba qəbul etdik. Ola bilər, bir hərf azalsın və ya artırılsın. Ancaq çox ümumi, normal əlifba qəbul olundu.

Bu, türk dünyasının elm adamlarının düşünərək, türk dillərinin quruluşunu nəzərə alaraq qəbul etdiyi əlifbadır. Siyasi qərarı isə türk dövlətləri verməlidirlər. Türk dövlətlərinin parlametləri, prezidentləri siyasi qərarı verəcəklər. Çünki türk dilləri müstəqildir. Müstəqil türk dillərinə heç bir qüvvə müdaxilə edə bilməz.

Bizim elm adamları olaraq vəzifəmiz bütün türk dillərinin əlifbasına, fonetik quruluşuna elmi baxış bildirmək idi. Məsələn, "ə" hərfini qəbul etdik. Bu hərf müstəqil türk xalqları içərisində iki xalqda var: Azərbaycanlılarda və qazaxlarda. Qazaxlarda da o qədər geniş yayılmayıb. Amma bizdə bu səs çox tez-tez işlənir. Qazaxlar israrla dedilər ki, biz əlifbada bu səsi "a" üzərində iki nöqtə ilə bildirəcəyik. Biz dedik ki, xeyr, bizdə bu ənənə var. 90-cı illərin əvvəllərində "a" üstündə iki nöqtəni "ə" kimi qəbul etmişdik. Amma bu, nə texniki, nə ictimai baxımdan özünü doğrultdu. Ona görə də biz "ə" hərfini saxladıq. Ümumi türk əlifbasında qazaxlar üçün də "a" üzərində iki nöqtə variantını saxladıq. Bir neçə belə cüzi fərqlər var".

Akademik Nizami Cəfərov açıqlamasında bir sıra digər belə məqamlara da diqqət çəkib. Onun sözlərinə görə, ümumi türk əlifbasının içərisində elə hərflər var ki, bəzi türk dillərində yoxdur: "Məsələn, özbəklərdə cəmi 6 sait səs var, bizdə 9, Türkiyə türklərində 8. Hansı xalqa lazım olsa, ümumi bazadan götürüb, o hərfi işlədəcək. Məqsəd odur ki, bir türk dilində eyni səs varsa, bu səs əlifbada eyni hərflə işarə olunsun. Eyni bir səs bütün türk dillərində eyni hərflə işarə olunacaq. Ancaq bu səs yoxdursa, onun işarəsi bizim dilimizdə olmayacaq. Belə bir çox dərin məzmunlu müzakirə keçdi.

Bir neçə ildir bu müzakirələr gedir. Son müzakirələrdə artıq bir-birimizi də başa düşürdük. İlk müzakirələr çox çətin keçirdi. Hər kəs istəyirdi ki, öz əlifbasını ümumi türk əlifbası kimi təqdim etsin, bu da təbiidir. Artıq məsələ aydınlaşdı, ümumi türk əlifbası bütün türk dillərinə aid işarələri əks etdirəcək. Hər kəs özünə uyğun hərfi oradan götürüb işlədəcək".

Bəs ortaq əlifbanın tətbiqinə nə vaxt başlanacaq? Sualımızı cavablandıran akademik bildirib: "Türk Dövlətləri Təşkilatı bu işlərlə məşğuldur. Biz artıq ümumi türk dünyasıyıq. Prezidentimiz də söylədi ki, biz türk ailəsinə mənsubuq. Yəqin ki, bu ailənin sahibləri olan prezidentlərimiz türk dünyası alimlərinin təklif etdiyi ümumi türk əlifbasını siyasi baxımdan bu yaxınlarda təsdiq edəcəklər. Təsdiq etməsələr, hansısa problem varsa, onu göstərəcəklər. Türkoloqlar yenidən işləyəcək, yenidən müzakirələr olacaq.

Ancaq mənə elə gəlir ki, belə bir müzakirəyə ehtiyac olmayacaq. Çünki illərdir bu müzakirələr gedir. Sonra hər bir ölkənin ixtiyarında olacaq, ümum türk əlifbasından işarələr götürüləcək. Məsələn, türk dillərində "t" səsi var. Elə olmayacaq ki, bu səsi qazax bir cür yazsın, özbək bir cür, qırğız başqa cür. "X" səsi, "Ə" səsi hansısa türk dilində yoxdursa, onlar onu öz əlifbalarına daxil etməyəcəklər. Amma həmin hərflər ümumi türk əlifbasında təmsil olunacaq".

*Mübariz ABDULLAYEV*

# Bakı dünyanın diqqət mərkəzində...

## Paytaxtımızda səkkizinci dəfə keçirilən Formula 1

**Dünyanın gözü yenidən Azərbaycana dikilib. Dünən Bakıda Formula 1 Azərbaycan Qran-Prisinə start verilib. Qran-Pri pilotların ilk sərbəst yürüşü ilə başlayıb. Yürüşdə hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Yürüş iştirakçıları bir saat ərzində 6 kilometrlik Bakı Şəhər Halqasında dövrə vurublar. Bütövlükdə, yarışın ilk günündə Formula 1 və Formula 2 üzrə sərbəst yürüş və sıralama turu təşkil olunub.**

### 10 komanda, 20 pilot mübarizə aparır

Paytaxtımız artıq səkkizinci dəfədir ki, Formula 1 yarışlarına ev sahibliyi edir. 10 komandadan 20 pilotun birincilik uğrunda mübarizə aparacağı yarış trekinin uzunluğu 6 kilometrdir. Bakı Şəhər Halqasında dünyanın ən məşhur pilotları - Luis Hemilton, Fernando Alonso, Maks Ferstappen, Şarl Lekler və digərləri yarışırlar.

Formula 1 təqvimindəki ən uzun treklərdən sayılan Bakı trasının 20 döngəsi var. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə edir və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində başa çatır. 51 dövrədən ibarət trekin ən geniş yeri 13, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir. Saat əqrəbi istiqamətinin əksinə hərəkət edən trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb.

Yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilmiş İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görəcəklər.

Yarışın start və finiş xətləri Azadlıq meydanında olacaq. Burada, həmçinin "Paddok klub", komandaların boksları və pit-leyn qurulub.

Bu gün Bakı Şəhər Halqasında Formula 1 üzrə sərbəst yürüş və sıralama turu, Formula 2 üzrə sprint yarışı keçiriləcək. Nəhayət, sonuncu gün - ayın 15-də əsas yarış baş tutacaq.

Qeyd edək ki, Azərbaycan 2016-cı ildən dünyanın ən nüfuzlu avtoidman yarışına ev sahibliyi edir. Ölkəmizdə təşkil olunan ilk Formula 1 yarışı Avropa Qran-Prisi adlandırılıb. Həmin yarışda almaniyalı Niko Rosberq birinci olub. Növbəti illərdə müvafiq olaraq Daniel Rikkardo (Avstraliya), Luis Hemilton (Böyük Britaniya), Valtteri Bottas (Finlandiya), Serxio Peres (Meksika) və Maks Ferstappen (Niderland) bütün rəqiblərini qabaqlayaraq podiumun ən yüksək pilləsinə qalxıblar. Yalnız 2020-ci ildə Azərbaycan Qran-Prisi koronovirus pandemiyası səbəbindən keçirilməyib.

### İzləyici rekordu

Formula 1 Azərbaycan Qran-Prisinin qlobal izləyici kütləsinin rekord həddə çatacağı gözlənilir. Bakı Şəhər Halqasının mətbuat xidmətindən verilən məlumata görə, yarışı 300-ə yaxın media nümayəndəsi işıqlandıracaq. Bunların 200-ə yaxını xarici media qurumlarının jurnalistləridir. Dünya media nəhəngləri "Sky Sports", "Motorsport", "Canal+", "Netflix", "The Sun" və digərləri bu sırada yer almaqla 3 gün ərzində həyəcanlı Bakı yarışını bütün dünya ilə paylaşacaq.



Tədbirin promoteri Bakı Şəhər Halqası Əməliyyat Şirkəti tərəfindən qurulmuş, hazırda 450 nəfərlik tutumu olan Media Mərkəz jurnalistlərin ixtiyarına verilib. Yarış həftəsi, çərşənbə günündən etibarən fəaliyyətə başlayan Mərkəzdə yerli və xarici media mənsubları Media Akkreditasiya Mərkəzinin, Media Mərkəzinin xidmətlərindən faydalanır. Həmçinin mərkəzdə komandaların mətbuat konfransları keçirilir. Jurnalistlər sorğularını Mərkəzin qəbul-sorğu masalarına yönəldə bilirlər. Media Mərkəzi Beynəlxalq Avtomobil Federasiyasının tələblərinə uyğun qaydada təsis edilir.

Qeyd edək ki, 2023 -cü il Formula 1 Azərbaycan Qran-Prisini televiziya və sosial media platformalarından 90 milyon insan izləyib. Formula 1 tərəfindən təqdim edilən rəsmi statistikaya əsasən, 2022-ci ildə bu rəqəm 59 milyon olub. Azarkeş və turist sayında, eyni zamanda, bilet satışlarındakı göstəricini nəzərə alaraq, bu il Azərbaycan Qran-Prisinin qlobal izləyici sayında da daha bir rekorda imza atılacağı istisna deyil.

### Formula 1 Azərbaycanı dünyaya tanıdır

Formula1 yarışının dünyada populyarlığı kifayət qədər yüksəkdir. Çox haqlı olaraq onu Olimpiya Oyunları, futbol üzrə dünya çempionatı ilə müqayisə edirlər. Belə bir yarışın ev sahibliyi hüququnun Azərbaycana verilməsi beynəlxalq səviyyədə ölkəmizə göstərilən yüksək etimadın təzahürüdür. Respublikamızda uzunmüddətli sabitlik hökm sürür. Kriminogen durumla bağlı hər hansı bir problem yaşanmır. Ölkədə dünyanın çox az bir yerində rast gəlinə biləcək multikultural mühit var. Burada irqi-dini ayrı-seçkiçiliyə qətiyyən rast gəlinmir. Bakının gözəlliyi bu müsbət reallıqları tamamlayır. Bütün bunlar da beynəlxalq birliyin Azərbaycana getdikcə artan etimadını şərtləndirir. Dünya respublikamıza inanır və güclü dövlət olan Azərbaycan da bu inamı yüksək səviyyədə doğruldur.  İndiyədək Azərbaycan "Eurovision" mahnı müsabiqəsinə, tarixdə ilk dəfə keçirilən Birinci Avropa Oyunlarına, IV islam Həmrəyliyi Oyunlarına, 74-cü Beynəlxalq Astronavtika Konqresinə, çoxsaylı enerji sammitlərinə, dialoq forumlarına ev sahibliyi edib. Formula 1 yarışının ardınca isə respublikamız BMT-nin ən irimiqyaslı tədbirlərindən olan COP29- a ev sahibliyi edəcək. Bu tədbirlərin keçirilməsi zamanı ölkəmiz özünün yüksək standartlarını təqdim edir. Belə tədbirlərin keçirilməsi bir tərəfdən Azərbaycanın necə güclü dövlət olduğunu nümayiş etdirir, digər tərəfdən isə dünyada qəbul olunan platformalar üzərindən ölkəmizin hər cəhətdən müsbət olan reallıqları təbliğ edilir. Biz daha geniş miqyasda dünya arenasına çıxırıq, ölkəmizin nüfuzu, siyasi çəkisi daha da artır.

Formula 1 yarışının Bakıda baş tutması ölkəmizin turist cəlbediciliyinin artması baxımından da çox önəmlidir. Yarış ərəfəsində paytaxtımıza çoxsaylı turistlərin gəldiyini müşahidə etmək mümkündür. Ölkəyə ayaq basan hər turist burada müəyyən xidmətlərdən yararlanır, alış-veriş edir. Bu isə həm də ölkə üzrə xidmət sektorunda və əlaqəli sahələrdə fəallığın artması, büdcəyə əlavə vəsaitlərin cəlb olunması deməkdir. Formula 1 mövsümündə treklər yalnız Bakı, Monako və Sinqapur şəhərlərində olur. Digər yarışlar isə stasionar yerlərdə keçirilir. Beləliklə, biz Formula 1 yarışı ilə paytaxtımızın tarixi və müasir simasını bütün dünyaya təqdim etmiş oluruq ki, bu da xüsusi əhəmiyyət daşıyır.

*MÜBARIZ*

# Ermənistanın mina terroruna qarşı...

## Beynəlxalq ictimaiyyət fəal mübarizə aparmalıdır

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan  çoxlu sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. 2020-ci ilin noyabr ayından indiyədək 379 nəfər mülki şəxs mina qurbanı olub. Onlardan 70 nəfər həyatını itirib, 309 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Əksər hallarda minaların qurbanları mülki əhali olur.

Bu fakt göstərir ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarında işğal dövründə basdırılmış minalar mülki şəxslərin və hərbi qulluqçuların həyatına təhlükə yaratmaqda və son qoymaqda davam edir. Ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir.

### Ombudsman Səbinə Əliyeva beynəlxalq konfransda ermənilərin mina terrorundan danışıb

Azərbaycan dövləti Ermənistanın mina terroru barədə dünya ictimaiyyətini mütəmadi olaraq məlumatlandırır. Yeri gəlmişkən, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İtaliyanın Latsio vilayətində keçirilən "Hüquqların təminatçısı kimi Ombudsmanın rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Konfransında çıxışı zamanı da bu problemi gündəmə gətirib. Dünya ölkələrində heç bir ayrı-seçkilik olmadan insan hüquqlarına hörməti təşviq etmək məqsədilə keçirilən tədbirə 50-dən çox ölkənin ombudsman və milli insan hüquqları institutlarının rəhbərləri, həmçinin nümayəndələri qatılıblar.




Konfransda "Qlobal böhranlar zamanı insan hüquqları. Ombudsmanın rolu" adlı sessiyada çıxış edən ombudsman S.Əliyeva hazırda dünyanın həm insan hüquqlarına, həm də ətraf mühitə təsir göstərən mühüm qlobal problemlərlə üzləşdiyini bildirib. Torpaqlarımızın otuz ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğala məruz qaldığını qeyd edən müvəkkil həmin ərazilərdə ətraf mühitə, bioloji müxtəlifliyə ziyan vurulduğunu, ekosidin törədildiyini bildirib.

Ermənistanın ərazilərimizdə həyata keçirdiyi mina terrorundan bəhs edən ombudsman həmin minaların vətəndaşların həyatına və sağlamlığına təhdid yaratdığını, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz qayıdışına, bölgədə aparılan bərpa-quruculuq işlərinə maneə törətdiyini vurğulayıb. Eyni zamanda, qeyd edilib ki, mina partlayışları regionda ekoloji tarazlığın pozulması ilə də nəticələnir.

### 161 min hektardan çox ərazi minalardan təmizlənib

Xatırladaq ki, Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bu yaxınlarda bildirmişdi ki, mina hadisələrinin əksəriyyəti keçmiş təmas xəttindən kənarda baş verir. Mina partlayışlarının 70 faizinin keçmiş təmas xəttindən kənarda baş verməsi onu göstərir ki, minalar məntiqsiz və qeyri-peşəkar şəkildə yerləşdirilib.

İşğaldan azad edilmiş ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi işləri davam etdirilir.

ANAMA-nın sentyabrın 12-də açıqladığı məlumata görə, 44 günlük Vətən müharibəsindən indiyədək Qarabağ və Şərqi Zəngəzurda 161 min hektardan çox ərazi minalardan təmizlənib, 156 mindən çox mina və müxtəlif təyinatlı hərbi sursatlar tapılaraq zərərsizləşdirilib. Aparılan minatəmizləmə əməliyyatları zamanı Ermənistan silahlı bölmələri tərəfindən qoyulan tələ minalara və sursatlara hələ də rast gəlinir.

### Minatəmizləmə əməliyyatlarını çətinləşdirən nədir?

ANAMA-nın əməliyyat rəhbəri Xaliq Zülfüqarov isə  jurnalistlərə açıqlamasında  bildirib ki, bu ərazilər mina və müharibənin digər partlayıcı qalıqları ilə ciddi şəkildə çirklənib. Onların işə düşməsi zamanı insanların həyat və ya sağlamlığının itirilməsinə, uzunmüddətli ağır psixoloji travmalara səbəb olur. Onun sözlərinə görə, ərazilərin təmizlənməsinə bir sıra amillər çətinlik yaradır. Minaların standartlara uyğun deyil, pərakəndə və qarışıq şəkildə basdırılması, sürpriz və tələlərin qoyulması, əldəqayırma və kustar üsulla hazırlanan partlayıcı qurğular, relyef təsirləri, tikanlı torlar və məftillər, ərazinin metal qırıqları ilə çirklənməsi, yağış və sel sularının təsirindən minaların dərinə düşməsi, taxta və plastik gövdəli minaların deformasiyaya uğrayaraq təhlükəsiz vəziyyətə düşməsi minatəmizləmə əməliyyatlarını çətinləşdirən və təhlükə yaradan amillərdəndir.  "Qarabağ və Şərqi Zəngəzura qayıdan və qayıtmağa hazırlaşan əhalinin mina və müharibənin digər partlayıcı qalıqlarının yaratdığı risklərdən qorunması, təhlükəsizlik qaydalarına riayət etməsi vacibdir. ANAMA tərəfindən əhalinin bu istiqamətdə maariflənməsi həyata keçirilir. Azyaşlı və yetkinlik yaşına çatmayan uşaqlara sürpriz minalar haqqında məlumat verməklə, həyatlarını xilas etmək olar. Unutmayaq ki, hər bir əşya, oyuncaq və ya suvenirin içərisində ölümcül qurğu quraşdırıla bilər. İşğaldan azad olunmuş ərazilərdə dəfələrlə bu kimi hallara rast gəlinib", - deyə X.Zülfüqarov vurğulayıb.

### Ermənistan dəqiq xəritələri hələ də verməyib

Ümumiyyətlə, Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Beynəlxalq təşkilatlar Ermənistanın mina terroruna biganə qalmamalı, törədilən hərbi və ekoloji cinayətlərə, humanitar hüquq pozuntularına sərt reaksiya verməli, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi istiqamətində bu ölkəyə ciddi təsirlər göstərməlidir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri  Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib.

Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda basdırmasının məqsədi də mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə, dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

Eyni zamanda, Azərbaycan öz ərazilərinin minalardan təmizlənməsi işində beynəlxalq təşkilatlardan fəal dəstək gözləyir. Ona görə də, qeyd etdiyimiz kimi, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

*Nardar BAYRAMLI*

# Xarici tərəfdaşlarımızın sayı artır

## Ticarətdə 5 milyard dollardan çox müsbət saldo qeydə alınıb

2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 26,9 milyard dollar təşkil edib ki, onun 16,1 milyard dolları ixrac, 10,7 milyard dolları idxaldır. Xarici ticarətdə 5,3 milyard dollar müsbət saldo qeydə alınıb. Ticarət saldosu onu göstərir ki, Azərbaycana daxil olan valyutanın həcmi ölkəmizdən çıxan valyutanın həcmindən 5,3 milyard dollar çoxdur.  Bu dövr ərzində Azərbaycanın ticarət tərəfdaşlarının sayı 169-a çatıb, xarici ticarət iştirakçılarının sayı isə 45,7 mini ötüb.

Xarici ticarət dövriyyəsinin 23,1 faizi İtaliya, 13,5 faizi Türkiyə, 9,6 faizi Rusiya, 7,3 faizi Çin, 4,3 faizi İsrail, 3,2 faizi Almaniya, 2,7 faizi ABŞ, 2,6 faizi Hindistan, 2,4 faizi Çexiya, 2,2 faizi Avstraliya, hər biri 2,0 faiz olmaqla Xorvatiya və Birləşmiş Krallıq, hər biri 1,5 faiz olmaqla Portuqaliya və Yunanıstan, hər biri 1,3 faiz olmaqla Gürcüstan, Bolqarıstan və İran, 1,2 faizi Rumıniya, hər biri 1 faiz olmaqla Ukrayna, Tailand və Türkmənistan, hər biri 0,9 faiz olmaqla Belarus və Koreya, 12,2 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

### 115 ölkəyə məhsul ixrac edilib...

Qeyd edilən dövrdə Azərbaycan 115 ölkəyə məhsul ixrac edib. İxracın 36,8 faizini İtaliyaya, 14,5 faizini Türkiyəyə, 7,0 faizini İsrailə, 4,1 faizini Rusiyaya, 3,7 faizini Çexiyaya, 3,6 faizini Hindistana, 3,4 faizini Xorvatiyaya, hər biri 2,5 faiz olmaqla Portuqaliya və Birləşmiş Krallığa, 2,4 faizini Almaniyaya, 2,3 faizini Yunanıstana, 2,0 faizini Bolqarıstana, 1,9 faizini Gürcüstana, 1,8 faizini Rumıniyaya, 1,5 faizini Tailanda, 1,0 faizini Tunisə, hər biri 0,8 faiz olmaqla Niderland və İndoneziyaya, hər biri 0,7 faiz olmaqla Ukrayna, İspaniya və Serbiyaya, 0,6 faizini ABŞ-a, 4,7 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil edib.

İxracda sözsüz ki, əsas məhsullar neft-qaz və ondan hazırlanmış məhsullar üstünlük təşkil edib. Ancaq buna baxmayaraq, ölkədə neftin ixracında azalma, qeyri-neftin ixracında artımlar müşahidə edilməkdədir. Belə ki, cari ilin yanvar-avqust ayları ərzində ölkədə neft hasilatı 40 faiz azalaraq təxminən 19,3 milyon ton təşkil edib ki, məhsulun 16 milyon tonu xaricə nəql olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 21 faiz azdır.

Ümumilikdə, ötən dövrdə Azərbaycanın ixracında neft məhsullarının həcmi 14 milyon dollar, qeyri-neft məhsullarının ixracı isə 2 milyon dollara yaxın olub. Neft mallarının ixracı azalsa da, qeyri-neft mallarının ixrac dəyəri artır. İxracda əsas mallar tərəvəz və meyvə məhsulları üstünlük təşkil edir. Xüsusilə də pambıq və pambıq lifi, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, kimyəvi mallar və sənaye texnologiyaları, elektrik enerjisi, kosmik sənaye məhsullarının ixracı davamlı artmaqdadır. Ötən 7 ayda "Azərkosmos" tərəfindən dünyanın 50-yə yaxın ölkəsinə təxminən 10 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib ki, bu da ixracın şaxələnməsinin nümunəsidir. .

### İdxalın dəyəri niyə artır?

Məsələ ondadır ki, ötən 7 ayda Azərbaycanın idxalı da əhəmiyyətli dərəcədə artıb. İdxalın artmasına səbəb tikinti və yenidənqurma işlərinin sürətlənməsidir ki, bu amil xarici ölkələrdən müasir avadanlıq və texnologiyaların gətirilməsini labüd edir. Bu sahəyə yönələn investisiyaların həcmi də yüksəlir. 2024-cü ilin ötən 7 ayında əsas kapitala 11,2 milyard manat investisiya yönəldilib ki, onun 8 milyard manatı və ya 72,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub. Bunun nəticəsidir ki, təkcə daxili mənbələrdən iqtisadiyyata yönəldilən investisiyaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 11  faiz artıb, eləcə də dövlət büdcəsinin xərcləri xeyli çoxalıb. Həmin xərclərin böyük bir hissəsi isə azad edilmiş ərazilərdə aparılan tikinti və yenidənqurma işlərinə yönəldilir. Bu ərazilərdə istifadə edəilən mal-material və avadanlıqların böyük əksəriyyəti isə xarici ölkələrdən idxal olunur ki, həmin malların alışı üçün yüz milyonlarla dollar xərclənir. Bu isə nəticə etibarilə idxalın xarici valyutada olan dəyərini də böyüdür. "Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası"nın məlumatına görə, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması tikinti materiallarına tələbatın yüksəlməsi ilə nəticələnib və hazırda digər regionlarda, həmçinin paytaxt Bakıda olan qurğular və texnikalar azad edilmiş ərazilərə daşınır. Üstəlik, həmin ərazilərdəki işlər üçün yeni texnikalar alınır. Təbii ki, bunlar tikintinin daha da geniş vüsət alması ilə nəticələnir. Bu da tikinti materiallarının qiymətlərinə təsir göstərir və idxalın dəyərini artırır.

Azərbaycanın mal və avadanlıqlar idxal etdiyi əsas ölkə Çindir, ümumi idxalın 18,2 faizi bu ölkənin payına düşür. Rusiya 17,8 faizlə ikinci, Türkiyə 12 faizlə üçüncü yerdə qərarlaşır. Sonarkı yerlərdə ABŞ, Avstraliya, Almaniya, İran və İtaliya dayanır.




### Xarici ticarətin strateji hədəfi - qeyri-neft ixracının təşviqi...

Azərbaycanın son illərdə xarici ticarət strategiyasında ixracın qeyri-neft məhsullarının hesabına artırılması başlıca yer tutur və yürüdülən siyasət və təşviqedici tədbirlər də buna xidmət erdir. Son illərdə iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunda istehsalın artması milli ixracın da böyüməsinə səbəb olub. Son 5 ildə qeyri-neft ixracı, ümumilikdə, 50 faizi ötərək dəyər baxımından 3 milyard dollardan yüksək olub. Xarici iqtisadi fəaliyyətdə əmtəə nomeklaturası üzrə ixracın çeşidi də hər il artır və bu, davamlı xarakter daşıyır. Təkcə son üç ildə 35 adda məhsul ixrac səbətinə daxil olub.

İxracın stimullaşmasında "Azexport.az" portalı, "Bir Pəncərə İxraca Dəstək Mərkəzi"nin fəaliyyətə başlaması, xarici ölkələrdə Ticarət evlərinin və Ticarət nümayəndələrinin açılması, dövlətin milli ixracataçılara davamlı ixrac subsidiyaları və təşviqləri verməsi, ixrac missiyaları və beynəlxalq sərgilərdə yerli sahibkarların iştirakının artması öz mühüm təsirlərini göstərməkdədir.

Ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür.

*ELBRUS*

# Manatın məzənnəsi 2029-cu ilə kimi sabit qalacaq

## “The Economist Group” Azərbaycanda güclü maliyyə sabitliyinin olduğunu bildirir

“The Economist Group”un araşdırma və təhlil bölməsi olan “Economist Intelligence Unit”in (ETU) bu günlərdə açıqladığı məlumatda Azərbaycanın maliyyə sabitliyi ilə bağlı müsbət məqamlar yer alıb. Tədqiqat qrupu, ölkəmizin maliyyə dayanıqlığının möhkəmlənməsində suveren yığım mənbələrinin artmasını, tədiyyə balansını cari vəziyyətinin əlverişliliyini əsas amillərdən biri kimi xarakterizə edir. Proqnozda Azərbaycan manatının sabitliyinə də diqqət yetirilir və qeyd edilir ki, Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarına nisbətdə sabit məzənnə rejimi tətbiq edir. Manatın proqnozu sabitdir və bu, böyük həcmdə cari əməliyyatlar hesabında müsbət saldo ilə dəstəklənir. EIU hesab edir ki, AMB-nin 2024-2028-ci illərdə əsas siyasət prioriteti böyük həcmdə valyuta ehtiyatları nəzərə alınmaqla manatın məzənnəsini sabit saxlamaqdır. Bu isə manatın məzənnəsinin 2029-cu ilə kimi sabit qalmasına səbəb olacaq.






Eləcə də manatın məzənnəsinə təsir edən amillər sırasında neftin satış qiymətinin təsiri də əsaslı rol oynayır. Hazırda dünya birjalarında “Brend və “WTI” markalı xam neftin 1 barrelinin qiyməti 70-75 dollar arasındadır. Beynəlxalq enerji institutlarının, reytinq agentliklərinin proqnozlarına görə, neftin 2024-cü ildə orta optimal qiyməti 70 dollardan aşağı gözlənilmir. Bəzi tədqiqat mərkəzləri qiymətlərin 80-85 dollar civarında olacağını proqnozlaşdırır.

### Hökumətin proqnozları necədir?

Azərbaycan hökumətinin 2024-cü il və qarşıdakı 3 ilə dair sosial-iqtisadi inkişaf proqnozlarında da manatın məzənnəsinin indiki indeks üzrə sabit qalacağına dair rəylər yer alır. Sənəddə qeyd edilib ki, makroiqtisadi sabitliyin qorunması məqsədilə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin gücləndirilməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalmasını dəstəkləyəcəkdir. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2024-2027-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi 1,7 manat səviyyəsində götürülüb.

Qeyd edək ki, Azərbaycanda manatın məzənnəsini bir neçə iqtisadi faktorlar müəyyən edir. Tədiyyə balansının cari vəziyyəti pisləşdiyi halda, manat üçün ciddi risklər meydana çıxır. Azərbaycanın 2024-cü ilin birinci yarısı üzrə tədiyyə balansının vəziyyəti olduqca qənaətbəxş olub, tədiyyə balansının cari əməliyyatlar hesabının profisiti təxminən 5 milyard dollar təşkil edib. 2024-2025-ci illərdə Azərbaycanın tədiyyə balansının cari hesabının orta illik profisitinin 7,5 milyard ABŞ dolları səviyyəsində olacağı proqnozlaşdırılır. Bu amil manatın xarici valyutalara nisbətdə dayanıqlılığı üçün mühüm faktor kimi əhəmiyyət kəsb edir.

### Neftin qiyməti 40 dollardan aşağı düşsə, manata təzyiqlər ola bilər...

Ona görə də hazırkı optimist ssenari manatın məzənnəsinin dayanıqlığı üçün güclü əsaslar yaradır. Neftin satış qiyməti 40 dollara enəcəyi təqdirdə manata təzyiq yükü yarana bilər. Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov bəyan edib ki, Azərbaycanın tədiyyə balansının tarazlığını saxlamaq üçün dünya bazarında “Azeri Light” markalı neftin 1 barelinin qiyməti 40-45 ABŞ dolları olmalıdır. Yəni, neftin qiyməti 40 dollardan aşağı düşməlidir ki, valyuta bazarında gərginlik baş versin və dolların məzənnəsinin yüksəlməsi, manata təzyiqlərin artması tendensiyası yaransın. Hazırda neftin qiyməti ilə bağlı heç bir narahatlıq yoxdur və manatın sabitliyini təhdid edəcək amillər sıfır səviyyəsindədir.

Manatın məzənnəsini nizamlayan ən əsaslı faktorlardan biri də ixrac-idxalın balansıdır. 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 26,9 milyard dollar təşkil edib ki, onun 16,1 milyard dolları ixrac, 10,7 milyard dolları idxaldır. Xarici ticarətdə 5,3 milyard dollar müsbət saldo qeydə alınıb. Ticarət saldosu onu göstərir ki, Azərbaycana daxil olan valyutanın həcmi ölkəmizdən çıxan valyutanın həcmindən 5,3 milyard dollar çoxdur. Bu amil də ölkədə dollar ehtiyatının olmasından xəbər verir. Eləcə də bankların dollar likvidliyi həddsiz dərəcədə son illərdə böyüyüb. Bu amil də təsdiqləyir ki, ölkəmizin valyuta bazarı profisitli tədiyyə balansı şəraitində fəaliyyət göstərir və tədiyyə balansının mövcud vəziyyəti dollar-manat münasibətlərində sabitliyi, valyuta tələbinin artıqlaması ilə ödənilməsini nizamlayır.

Manatın sabit məzənnəsinin qorunması üçün ölkənin iqtisadi blokunun, əlelxüsus da Mərkəzi Bankın güclü təsiredici və tənzimləyici prioritetləri mövcuddur. Yeri gəlmişkən, 2023-cü il ərzində manatın nominal effektiv məzənnəsi 19.3 faiz, real effektiv məzənnəsi isə 5.1 faiz möhkəmlənib. 2024-cü ilin birinci yarısında isə bu rəqəm 14 faizə yaxın olub. Manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiya idxalını məhdudlaşdıran başlıca amillərdən biri kimi çıxış edib.

Ümumilikdə, hazırda Dövlət Neft Fondu və Mərkəzi Bankla birlikdə Azərbaycanın 70 milyard dollara yaxın strateji rezervləri mövcuddur ki, bu ehtiyatlar manat üçün təhlükəsizlik yastığı rolunu oynayır.

### Mərkəzi Bank tənzimləyici funksiyasını davam etdirir...

Manatın məzənnəsinin müəyyənləşməsində iqtisadi amillərlə yanaşı, Mərkəzi Bankın sərt nəzarətedici funksiyası da mühüm rol oynayır. Dollara tələb artdıqda manata olan təzyiqləri nəzərə alaraq MB bəzi məhdudlaşdırıcı alətlərdən istifadə edir, banklarda dollar satışının limitlə aparılmasına çalışır və s. Hələlik bu istiqamətdə məhdudlaşdırıcı elementlər müşahidə edilmir. Ancaq Mərkəzi Bank uzaqgörənlik edərək bəzi tədbirləri də yaddan çıxarmır. Son aylarda dollar tələbinin artmasından qayğılanaraq öz monetar funksiyasını gücləndirib. Belə ki, MB tərəfindən “Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları”nda dəyişikliklər edilib və fiziki şəxslərin məqsədli köçürmələrinin, o cümlədən sahibkarlıq subyektlərinin xarici ticarət əməliyyatlarının pul köçürmələrində bəzi məhdudiyyətlər qoyulub. Dəyişikliklərə əsasən, fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilib, köçürmə formasından asılı olmayaraq, aylıq limit 20 min dollar ekvivalentindədək müəyyən edilib. Ticarətlə məşğul olan bazar iştirakçıları üçün illik müvafiq normalar müəyyənləşdirilib.

### “Fitch Ratings”: Manatın sabitliyi maliyyə dayanıqlılığını təmin edir

Yeri gəlmişkən, “Fitch Ratings” beynəlxalq reytinq təşkilatı bir müddət əvvəl açıqladığı proqnoz-hesabatda Azərbaycanın güclü milli valyuta ehtiyatları və suveren fondlara malik olduğunu bildirib. Təşkilat hesab edir ki, Azərbaycanın milli valyutasının sabitliyi maliyyə dayanıqlığını təmin edir. “Fitch”in proqnozlarına görə, Azərbaycan manatının məzənnəsi ortamüddətli perspektivdə indiki nisbətdə qalacaq və bu, həm də bəzi dairələrdə yayılan devalvasiya söhbətlərinin gerçəklikdən uzaq olmasını əsaslandırır. Manatın məzənnəsi 2027-ci ilədək sabit qalacaq.

“Fitch Ratings”, həmçinin Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqini “BBB-” səviyyəsində təsdiqləyib ki, bu da ölkəmizin tədiyyə balansının cari balansı, iqtisadi artımın əldə olunması, xarici maliyyə öhdəliklərinin çevik idarə olunması və digər amillər də ölkəmizin reytinq üzrə proqnozunun sabitliyini şərtləndirir və neft gəlirlərinin azalması fonunda belə Azərbaycanın cari balansının qənaətbəxş səviyyədə saxlanılmasını göstərir. Bu o deməkdir ki, “Fitch” Azərbaycanın maliyyə vəziyyətinin təmin olunmasında qeyri-enerji amillərinin təsiredici rolunu mühüm amil hesab edir və iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun yeni artım mənbələrinin səfərbər olunması istiqamətində yürüdülən siyasəti təqdir edir.

**E.CƏFƏRLİ**

# Biznesin yeni təklifləri...

## Sahibkarlar gömrük prosedurlarının sadələşdirilməsini istəyirlər

Sahibkarlar Dövlət Gömrük Komitəsi (DGK) qarşısında gömrük prosedurlarının rəsmiləşdirməsinin optimallaşdırılması təklifi ilə çıxış ediblər. Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən sahibkar və brokerlərin gömrük orqanları əməkdaşları ilə görüşündə, həmçinin idxal-ixrac əməliyyatlarının və ticarətin daha da asanlaşdırılması məsələləri müzakirə olunub. Sahibkarlar Konfederasiyanın vitse-prezidenti Vüqar Zeynalov son illər gömrük sistemində aparılan islahatlar, prosedurların sadələşməsi, innovativ xidmətlərin istifadəyə verilməsini müsbət dəyərləndirərək, biznesin fəaliyyətinə müsbət təsir etiyini vurğulayıb. Ancaq bununla yanaşı, bəzi gömrük prosedurlarının biznesin daha geniş ticari əməliyyatlar aparmasında çətinliklər yaratdığını və onların həllini tapması istiqamətində birgə əməkdaşlığın zəruriliyini diqqətə çatdırıb.

DGK sahibkarların irəli sürdüyü təkliflərin geniş formatda nəzərdən keçiriləcəyini və Sahibkarlar Konfederasiya ilə birlikdə biznesin azad fəaliyyəini təşviq edən islahatların yürüdüləcəyini, gömrük prosedurları ilə bağlı əlavə addımların atılacağına əmin edib.

### Biznesin optimallaşdırma təkliflərinə nə daxildir?

Sahibkarları ən çox narahat edən məsələlərdən biri yüklərin sərhədlərdə yubanmasıdır. Son aylarda belə hallara daha çox təsadüf edilir. Bu, həm Gürcüstan, həm də Rusiya ilə sərhəd-keçid məntəqələrində müşahidə edilməkdədir. Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) məlumatına görə, sentyabrın ilk ongünlüyündə gömrük-sərhəd məntəqələrində çıxışda gözləmədə olan nəqliyyat vasitələrinin sayı bir qədər də artıb. Təkcə, Azərbaycan-Gürcüstan sərhədində yerləşən “Qırmızı-Körpü” gömrük postunda 400 avtomobil gözləyir. Bundan başqa, “Samur” gömrük postunda 23, “Mazımqara” gömrük postunda 6, “Biləsuvar”da 13, “Astara” postunda isə 16 yük avtomobili gözləyir. Azərbaycan-Rusiya sərhədində yerləşən “Xanoba” gömrük postunda gözləmədə olan yük avtomobili yoxdur.

Bu, yerli daşıyıcı və logistika şirkətlərini, ticarət iştirakçıları olan biznes subyektlərinin xərclərini artırır, onların gəlirlərinə təsir edir. Ona görə də, sahibkarlar sərhəd-keçid məntəqələrində uzun növbələrin yaranmasının qarşısının alınması üçün əlavə post məntəqələrin qurulmasını, gömrük rəsmiləşdirmə prosedurlarının optimallaşdırılmasını, eləcə də tranzit yüklərin daşınması zamanı yüklərin bəyannaməsində meydana çıxan tarif anlaşılmazlıqlarının daha tez həllini tapmasını istəyirlər. Eləcə də tranzit daşınmalarının sürətləndirilməsi, e-TİR layihəsinin tətbiqinin genişləndirilməsi, dövlət - özəl sektor əməkdaşlığının genişləndirilməsi və digər məsələlərdə də optimallaşmanın tətbiqi vacib sayılır. Bunun üçün gömrük qaydalarında və qanunvericilikdə dəyişikliklərin edilməsi labüd hesab edilir.



### “Şimal-Cənub” və Orta Dəhlizdə daşınmaların artması yeni tələbləri meydana çıxarır...

Əlavə post məntəqələrin qurulması və gömrük rəsmiləşdirmə prosedurlarının asanlaşdırılması və daşınmaların sürətləndirilməsi gömrük xidməti və hökumətin də marağındadır. Çünki Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycandan keçən Avropa-Qafqaz-Asiya və “Şimal-Cənub” nəqliyyat dəhlizlərində daşınmaların intensivləşməsi və axıcılığın artması, eləcə də Orta Dəhlizin Azərbaycan hissəsindən əlavə yüklərin daşınması müşahidə edilir. Cari ilin yanvar-iyul aylarında tranzit daşımaların həcmi 25 faizdən çox artıb. Beynəlxalq dəhlizlərdə daşınmaların artması və tələbatların daha da çoxalması isə ölkəmizin tranzit gəlirlərini yüksəldir. Bu baxımdan yükdaşımaların həcmini sürətlə həyata keçirmək üçün gömrük orqanları əlavə tədbirlərin görülməsinə çalışır.

### “Yaşıl dəhliz”in genişləndirilməsi, biznes üçün asan keçidin təmin edilməsi...

Gömrük orqanı biznesin bu tələbatlarını nəzərə alaraq “Yaşıl gömrük dəhlizi”nin (“Yaşıl dəhliz”) imkanlarını daha da genişləndirmək istəyir. Qeyd edək ki, “Yaşıl dəhliz” buraxılış sistemlərindən malların daha tez və asan hərəkətinə imkan verir. İndiyə qədər sahibkarlara məxsus malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün bu dəhlizin imkanlarının təmin edilməsi ilə bağlı bir sıra addımlar atılıb. Artıq xeyli müddətdir ki, “Yaşıl dəhliz” sistemi beynəlxalq təcrübədə mövcud olan digər buraxılış mexanizmlərinin Azərbaycanda da tətbiqinə imkan verib və hazırda “Yaşıl dəhliz” xidmətləri bütün biznes icması üçün fasiləsiz asan rejimdə açıqdır. Bu baxımdan sahibkarların təklifləri əsasında birgə əməkdaşlıq çərçivəsində prosedurların asanlaşdırılması mümkündür.

Qeyd edək ki, kiçik və orta biznes (KOB) və gömrük orqanı arasında əməkdaşlıq təşəbbüsləri bir neçə ildir ki, davam etdirilməkdədir. 4 il əvvəl Dövlət Gömrük Komitəsi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında qarşılıqlı əməkdaşlığa dair imzalanmış memoranduma əsasən, sahibkarlığın inkişafına dəstək, idxal-ixrac əməliyyatlarında təcrübənin bölüşülməsi, fəaliyyətin asanlaşdırılması istiqamətində davamlı addımlar atılıb. Memorandumdan irəli gələn təşəbbüslər çərçivəsində gömrük nəzarəti zonalarında və gömrük rəsmiləşdirilməsinin aparıldığı digər yerlərdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin idxal-ixrac əməliyyatları üzrə fəaliyyətinin təkmilləşdirilməsi, malların və nəqliyyat vasitələrinin düzgün bəyan edilməsinə köməklik göstərilməsi, eləcə də gömrük orqanları ilə KOB-lar arasında əməkdaşlığın və qarşılıqlı etimadın gücləndirilməsi və digər birgə tədbirlərin həyata keçirilməsi təmin olunub. Bir müddət əvvəl “KOB gömrük anbarı” yaradılması da kiçik və orta biznes (KOB) subyektlərinin işini daha da asanlaşdırmağa xidmət edib.

Gələcək fəaliyyət hədəfləri çərçivəsində gömrük xidmətlərinin bütün biznes icması üçün daha əlçatan və əlverişli səviyyəyə yüksəltmək, risklərin tamamilə minimallaşdırmaq, gömrük inzibatçılığını çevik və optimal vəziyyətə gətirməkdir. Eyni zamanda, gömrük anbarının fəaliyyəti sayəsində KOB-lar üçün gömrük prosedurlarının rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması nəzərdə tutulur.

### İdxaldan asılılığın azaldılması, ixracın artırılması...



Yerli sahibkarların digər bir istəyi yerli istehsalın həcminin artırılması və idxaldan asılılığın azaldılması, ixracın artırılmasıdır. Çünki ölkənin ərzaq təhlükəsizliyinin dayanıqlı təminatı və qida bazarında xaricdən asılılığın minimallaşdırılması yerli bazar qiymətlərinin sabitliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Ona görə də sahibkarlar müvafiq qurumlar qarşısında məsələ qaldıraraq idxalı əvəz edən yerli istehsala dövlətin daha əhatəli dəstək verməsini istəyirlər.

Hökumət bu imkanları dəyərləndirərək bazar araşdırması apararaq perspektivli milli istehsal sahələrinə dəstəkləyici təşviqləri davam etdiriləcəyinin vəd edir. Xüsusilə də ət məhsulları istehsal edən fermer və sahibkarların təklifləri qiymətləndirilərək heyvandarlıq sahəsi ilə məşğul olanların yem tədarükü məntəqələrinin inkişaf etdirilməsi, örüş yerlərinin yaradılması, südçülük emalı müəssisələrinin yenidən formalaşdırılması üçün əlavə kredit resurslarının təmin edilməsi nəzərdə tutulur.

**Elbrus**

# TÜRKLÜYÜN YADDAŞ İNTİBAHI

## Azər Turanın doğum gününə

*"Dağlarım, mavi pənbə dağlarım,*
*Babalarımın torpağı, atalarımın məskəni"!*
***Ç.Aytmatov. Daniyarın türküsü...***

Azər Turanın yaradıcılıq salnaməsində mənəvi və estetik qanunauyğunluq səviyyəsinə qalxan bir xüsusiyyət var. O, öz yaşam kredosunu örnək bildiyi şəxsiyyətlərin ömür fəlsəfəsinə uyğun qurub. Əsas olan daha bir məqam var. Mətnlərində zamanla gözəl qurulmuş bir dialoqa nail olması. Nə mənada? V.Nabokov Tolstoyla bağlı düşüncələrində yazır: "Tanıdığım yeganə yazıçı odur ki, saatı sayısız oxucuların saatı ilə həmişə düzdür. Əslinə qalanda, orta statistik oxucunun onu sevməsinin səbəbi Tolstoyun öz əsərlərinə bizim zaman hissimizə birəbir düz gələn dəyərlər qata bilməsidir".

Sözlə, yaradıcılıqla məşğul olan insan üçün bu, çox vacib amildir. Şairmi, nasirmi, yoxsa ədəbiyyatşünasmı, fərqi yoxdur, əsas məsələ meydana qoyduğu mətndə zamanın tarazlığının duyulmasıdır, həyatını müxtəlif dövrün insanlarının zamanlarına uyğun biçimdə qurmasıdır. Bu isə asan deyil, yazan şəxsdən həm də fədailik istəyir. Şəxsi istəklərini ayaq altına qoyub dəyərlərini qaldıra bilmək gücü tələb edir. Diqqət etsək, bütün sözə ehya verən, mücadiləsi uğruna ömür nisar edənlərin ədəbi yaşamaq haqqı qazanmasının sirri bundadır.

Azər Turanın ömür fəlsəfəsini iki əsas söz müəyyənləşdirir: Məfkurə və Sənət! Onun bütün tale mətnləri bu iki düşüncənin tilsimində doğulub. Türkçülük və turançılıq yolunda fikir zəlzələsi yaratmış nəhəng şəxsiyyətlər, mənəviyyatı irfan işığı, kamillik zirvəsi ilə yoğrulmuş mürşidi-ərənlər, həyatları yarıda qırılmış qərib və nakam ruhlar. Onun yazılarında tarixin səsini eşitmək olur. Bu baxımdan, yazdıqları ilə ən dərin təməldə durmağa da haqqı çatır, ən işıqlı uzağı, zirvəni görməyə də milli-mənəvi əsaslar verir. Yaradıcılığında keçmiş və çağdaşlığın vəhdəti, onların eyni müstəvidə çulğalaşması bədii üsul kimi daim funksionaldır. Dünya bədii-estetik təfəkkürünə əsrlərlə hökmranlıq etmiş antik ədəbiyyata dərin marağı, romantizmin xəyal pərdəsi fonunda bərpasını tapmış milli mövzulara müraciəti, daim arxetip obraz və süjetlərin aktuallandırılması və bu günlə əlaqələndirilməsi Azər Turanın bütün mətnlərinin özülündə müxtəlif formalarda ehtiva olunur. İncəsənətin bütün sahələrinə eyni səviyyədə bələdliyi, çağdaş dünyanın düşüncə sistemlərini müəyyənləşdirən paradiqmalara vaqif olması ona mətni oxumağa hər cür imkan yaradır və Azər Turanın sərhədsiz və universal zəkası sayəsində mətn artıq qapalı deyil, geniş, hüdudsuz kulturoloji struktur sistemlərinin qavrayış və dərketmə proseslərinin predmetinə çevrilir.

Onun istənilən mövzuda yazdığı mətndə fikir mahiyyətə işıq süræti ilə nüfuz edir, məna ağırlaşır, söz sıxılır və rəng qatılaşır. Məncə, sirr də, sehr də məhz buradadır. Hər cür ruhsal-ruhani məxəzlərə bələdliyindən tutmuş, dünya sivilizasiyasının ən son, modern düşüncə qatında təmərküzləşən boya, səs və söz səciyyəsinə vaqif olması və bunları predmetə yüksək səriştə ilə tətbiq etməsində! Avropada hər yeni intibah dalğası elmlə dinin arasındakı yeni qaynaqdan doğulduğu kimi, Azər Turanın məqalələrindəki bu sintezdən - yəni, elmlə sənətin iç-içə təhlil üsulundan da yeni oriyentir nişan verən, zamansızlığı, intəhsizliyi təmsil edən örnəklər hasilə gəlir. Onun "Yatmış şəhərin yuxusu - Ucal Haqverdiyev", "Caz, sədəcə, musiqi deyildir", "Dünyanın Cavad mifi", Xalq rəssamı Sakit Məmmədovun "Qarabağnamə"si haqqında yazdığı "Qarabağ apofeozu" məqalələri ədəbi, tarixi, mifoloji, dini və mədəni mətnlərin simbiozu kimi müstəsna əhəmiyyət daşıyır. Buradakı mətn çoxluğu arxetiplərdən danışmağı xüsusi şərtləndirir. Ümumiyyətlə, Azər Turanın istənilən məqaləsində arxetiplərin iştirakı həm şifrələnmiş informasiya daşıyıcısı rolunda iştirak edir, həm də oxucunun düşüncə, duyğu və davranışını hərəkətə gətirmək missiyası daşıyır. Tanınmış strukturalist Levi-Strossun belə bir fikri var: "Şüuraltı - fərdi lüğətdir, bizim hər birimiz öz fərdiliyimizin leksikasını yazırıq. Və şüursuzluq onu öz qanunları ilə elə təşkil edir, ona elə məna və dil verir ki, nəticədə bu lüğət bizə və başqalarına aydın olur".



**ELNARƏ AKİMOVA,**
***YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri***

"Fərdiliyin leksikası"! Azər Turanın hipermətnlərindəki özəlliyi açan ən uğurlu ifadələrdəndir. Əsərlərindəki dil, üslub müstəsnalığı, leksik-semantik və sintaktik bütövlüyün ahəngi, düşüncə, təxəyyül sınırlarının sərhədsizliyi, zəngin erudisiya onun hər cür intermətn yaratma potensialını meydana qoyur. Yəni əsas mövzu, ideya müəyyən nüvə ətrafında fokuslansa da, çeşidli törəmə yazı növlərini görmək çətin olmur. Rəsul Rzanın "Rənglər"i, Toğrul Nərimanbəyovun "Nar"ı, Vaqif Mustafazadənin "Caz"ı və s... Azər Turan onların hər birinə fərqli estetika, fərqli münasibətlə yanaşır, istinad etdiyi bütün poetik və kulturoloji etüdləri bir yerə cəm edərək tamam fərqli düşüncə fəzasının föyqünə yerləşdirir. Bu düşüncə fəzası Azər Turanın mətnlərinin ən səciyyəvi məkan göstəricisidir. Nədən yazırsa, predmetə aid bütün nəsnələr dünyanın hansı başında olursa olsun, bir araya gətirilir. Bu intertekstuallıq səpələnmiş yaddaş qəlpələrini bərpa edib eyni çatı altında "oxumağa", dərk və həzm etməyə imkan yaradır. Çünki Azər Turan dünyanın müasiri olduğu fəlsəfi-estetik təfəkkür tiplərinin ehtiva olunduğu Sənəti axtarır, daxilində ənənəvi-klassik ifadə modelləri ilə yanaşı, həm də dünyanı fərqli dərk və əksetdirmə prinsipinə əsaslanan avanqard xarakterli konsepsiyaların ehtiva olunduğu Sənəti!

Əsl sənət həmişə siyasət və ideologiyalardan üstündür. Azər Turanın sənət baxışında bu, belə səciyyələnir, bütün qaydalar, bütün etalonlar onun yanaşmasında, onun yaratdığı iyerarxiyada pozulur, Bodriyarın sözləri ilə desək, "bütün fərqliliklər eynilikdə əriyir". Bura qədər olan sənətə zidd nöqteyi-nəzərlər eyni, vahid, birmənalı baxış sferasında görünməz olur. Niyə? Çünki onun mətnlərində aranan yalnız ədəbiyyatın yeri və səviyyəsi, onu idrak və fəhm məqamıdır. Azər Turan fərqli kulturoloji kontekst və zamanlarda mövcud olmuş, dünya bədii-estetik və fəlsəfi fikrinin təsəvvür sınırlarını genişləndirən bütün mənəvi intibah nümunələrini yazılarının təhlil predmetinə daxil edir. Din, mifologiya, ədəbiyyat, o cümlədən incəsənətin bütün sferaları gerçəklik adlanan ucsuz-bucaqsız aləmi dərk etmənin müxtəlif formaları kimi mətnlərdə daim funksional görünürlər.

***

Azər Turanın türkçü kimi obrazı nəhəngdir, onun istənilən yazısını oxumaq bəs edir ki, təfəkkür və əqidə vüsətinin hüdudlarını təsəvvürə gətirib öyünə biləsən. O, türkün min illik tarixindən gəlir, dünya tarixində, məfkurə yaradılışında, millət kimi formalaşmaqda türk ruhunun önəmli rolundan bəhs edir. Türk sultanlarının hünərləri ilə toplumdan millətə, dövlətə çevrilən xalqın zəngin dəyərlər üstə yüksəlişini hər məqalə, hər mətn boyu göstərməyə çalışır. Onun hasilə gətirdiyi ən gözəl, ən konseptual kitablarının nüvəsində türkçülük amili, Rüstəm Kamalın təbirincə desək, "bir məfkurənin poetikası" dayanır. "İrfan çobanı"ndakı "Qaval fəziləti" - "Cavidnamə"ni, "Qafqaz İslam Ordusu Neftçalada - 1918" - "Darülmöminin" kitabını, "Turanın ermişi" - "Əli bəy Hüseynzadə"ni, "Ağrıdan yaranmış söz" məqaləsi "Fəryadın metafizikası" - modernizm silsiləsini hasilə gətirir. Tale yolu yarıda qırılan, ədəbi irsi itirilmiş zamanın gədazına getmiş insanların tarixi haqqını özünə qaytarmaq missiyası var bir də... Repressiya qurbanları olan Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Bəkir Çobanzadə, Ağa Mirbağır Ağazadə, Özbək Abdurrauf Fitrət... Bir də özbək əsilli alim, şəhid türkoloq, Mahmud Kaşqarlının "Divan"ının ilk tərcüməçisi Xalid Səid Xocayev. Onun itmiş divanının tapılması uğrunda Azər Turanın illərdir apardığı mücadilə bugünümüzə qədər uzanan axtarış və uğurun predmetidir.



"Divani-luğat-it türk"ün Azərbaycan türkcəsinə dünyada ilk dəfə Xalid Səid tərəfindən tərcümə edildiyini vurğulayan Azər Turan, həmçinin bu qədim mətnin türkşünaslığın çağdaş prinsipləri baxımından ilk izahlı, elmi tərcüməsinin yaradılması prosesinin də Xalid Səid Xocayevə məxsus olduğunu hələ 2009-cu ildə yazdığı "Xalid Səid Xocayev - şəhid türkşünas" kitabında bildirmişdir. Azər Turan bununla yalnız bir alimin haqqını bərpa etməmiş, həmçinin türk əxlaqının, türk mənəviyyatının kökündə dayanmış bu qiymətli divanın ilk tərcüməsinin bizə məxsus olmasını xüsusi məhəbbət və məraqla vurğulamışdır. Və buradan yola çıxaraq əsas, önəmli sayılan bir faktı aktuallandırmışdır: Xalid Səidin tərcümə etdiyi "Divani-luğat-it türk"ün bu günəcən nəşr edilməməsi faktını. Belə bir acı reallığın davam etməsi, meydanda olan məlum fakta göz yumulması çağdaş türkologiya, dilçilik elmimiz üçün üz qarasıdır, deməkdir. Müəllif haqlı olaraq, 1935-1937-ci illərdə Azərbaycanda tərcümə olunmuş "Divan"ın üzə çıxarılacağı təqdirdə Bakının dünya türkologiyasındakı nüfuzuna əsaslı nüfuz əlavə olunacağı məsələsini elmi dövriyyəyə gətirmişdir. Nəhayət, bu çabalar səmərəsini vermiş, uzun illər hökm sürən "xüsusi və davamlı bir etinasızlıq" dalğası yarılmış, Mahmud Kaşqarinin "Divani-luğat-it türk" əsərinin Xalid Səid tərəfindən edilən tərcüməsi 2023-cü ildə AMEA Nəsimi adına Dilçilik İnstitutu tərəfindən aşkarlanıb çap edilmişdir. Xalid Səidin ruhu dincilik tapıbmı bilmirəm, amma bu, Azər Turanın bu yöndə illərlə apardığı mücadilənin tamamlanma nöqtəsi kimi tarixdə qalacaq.

Azər Turanı böyük fikir adamı Əli bəy Hüseynzadə yaradıcılığındakı ontoloji dəyərlərlə birləşdirən ortaq nöqtə də elə bu mücadiləndə ehtiva olunan keyfiyyətlərdir: dəyərə münasibətində sapmaması, əlinin titrəməməsi, güzəştsiz milli mövqe sərgiləməsi! O məqam ki, özünün də yaradıcılığında daim bütöv, qayəli və konseptualdır. Bu mənada, Azər Turan bizim milli mətbuatımızda itirilməyən ziyalılığın simasıdır.

Xüsusilə, onun siyasi-fəlsəfi publisistikası ermənilərin türkə qarşı xudbin oyunlarının ifşasına, türk mədəniyyətinin dərin qatlarını üzə çıxarmağa yönəlmiş, türkün əzəli ruhunun bərpası üçün tarix yazan müzəffər ordumuzun, Qarabağ dağlarına merac edən müqəddəs şəhidlərimizin fədakarlığına, "dəmir yumruğu" tarixin qapazı kimi ermənilərin başına endirən Ali Baş Komandanımızın misilsiz hünərinə qoyulan böyük söz abidəsidir. Erməni şovinizminin həyata keçirdiyi tarixi-siyasi proqramın ideya kökləri, qlobal motivləri və strateji hədəfləri, mənəvi terroru özlərinin aşkar üsuluna, fəal cəbbəxanasına döndərən düşmən məkrinə qarşı türkün bəşəri sivilizasiyaya verdiyi töhfələr, türkün sözündə və sənətində əksini tapmış potensial - Azər Turan çağdaş proseslərə tarixin varlıq yuvasından - məfkurə yaddaşından baxır. Bu yaddaşda heç nə unudulmur. Nə dünənin acı təcrübəsi, nə bugünün şərəfli lövhələri: "Bir az əvvəl Şuşa məscidindən bir görüntü yayınlandı. Şuşaya bayraq sancan dünyanın ən güclü əsgəri 28 illik həsrətdən sonra Gövhər Ağa məscidinin döşəməsini süpürürdü... Məfkurəvi müharibəmiz - Qarabağ savaşı Türk gücünün və Türk ruhunun zəfəri ilə başa çatdı... Tanrı türkü qorusun!"

***

Yaradıcılığında qərar tapan modern sənət axtarışlarına, çağdaş ədəbi proseslə bağlı dərin və tutumlu təhlillərinə baxmayaraq, Azər Turanın mətnləri türklüyün yaddaş intibahıdır. İdeal və əməllərin timsalında min illik mənəvi dəyər və intellekt potensialımızla qürur duymağımıza vəsilə olan qiymətli arsenaldır. Bu yazılar türk və turan ənənələrinin fəlsəfəsini, onun zəngin mədəniyyətinin leksik-semantik-bədii mənasını özünə qaytarır. Türküstandan üzü Qafqaza, Anadoluya, Kiçik Asiyaya yön almış hikmət sahiblərimizin irsini, türklük və islam ərənlərinin, ruhu elm və irfan işığı ilə yoğrulmuş din və təriqət mürşidlərinin həyat və əməl yolçuluğunu "vahid türk kültürü" məkanı üçün ortaq sərvətə çevirir. Onları bütün türk dünyası ilə bağlı mədəni-mənəvi təmərküz nöqtəsi də adlandırmaq olar. Tarix və mədəniyyətin bütün qatlarını tapmaq olar bu yazılarda.

Bir neçə il əvvəl, haqqında yazdığım "Uzun, incə bir yolda - Azər Turan ömrü" kitabımda səsləndirdiyim bir fikri xatırlayıram: hər kəsin həyatında bir Azər Turan olmalı! Dürüst, işıqlı, etibarlı, sağlam əqidə və mənəviyyata malik kimlik sahibi. Bu gün bunu daha yüksək hüduda aidləyərək demək istəyirəm: hər millətin, hər xalqın içində onu təmənnasız, bütün varlığı ilə sevən bir Azər Turan olmalı! Çünki onun bütün yazıları milli kimliyimizin genetik kodlarını nişan verən qürur türküləri, türk məfkurəsinin yaddaş məxəzidir. Bütün ömrü bu müqəddəs amal uğruna savaşlardan keçmiş, durulmuş, əqidə və əməl bütövlüyü kəsb etmişdir...

O, ucsuz-bucaqsız azlardan biridir. Ədəbiyyatda elə insanlar var ki, hər gün haqqında yazdırmalarına, təbliğatları üçün əldən getməklərinə rəğmən gurultulu səhifələrin və heç nədən hay-küylərin özləri ilə birgə (bəlkə də, özlərindən qabaq!) qapanacağı şübhəsizdir. Çünki gələcəyə qalan Mətndir! Əməkdir! Bir də uccuz-bucaqsız Ədəbiyyat sevdası!

Bəli, "ucsuz-bucaqsız azlıq" (X.Ximenes)!

O azlıq ki, tarix və zaman həmişə onların məhvərində fırlanır.

---

**NARDAR**

# Parisdən növbəti absurd iddia...

## Fransanın Azərbaycanın məhkəmə sisteminə hörmətsizliyi qəbuledilməzdir

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistana havadarlıq edən beynəlxalq dairələri ciddi narahat edir. Bu baxımdan, xüsusilə Fransa öndə gedir. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir. Bu ölkə əsassız olaraq ölkəmizin imicinə zərbə vurmağa çalışır. Rəsmi Parisin öz vətəndaşlarına Azərbaycana səyahət etmək xəbərdarlığı da bunun daha bir göstəricisidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək ölkəmizə dair açıqladığı sərt səyahət xəbərdarlığı ən azı təəssüf doğurur.

## XİN: Parisin bu qərarı sual altına almağa ixtiyarı yoxdur

Azərbaycan Fransa vətəndaşlarının hansı səbəblərdən saxlanıldığını rəsmi səviyyədə bəyan edib. Lakin Paris məsələyə qərəz prizmasından yanaşmaqda davam edir. Rəsmi Bakının bəyan etdiyi kimi, Fransa tərəfindən verilmiş bu cür əsassız, qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir. Bütün bunların fonunda Fransanın Avropa və Xarici İşlər Nazirliyi yenə də bu ölkənin vətəndaşı Teo Klerkə qarşı guya ayrı-seçkilik edilərək onun barəsində məhkəmə tərəfindən "haqsız qərar verilməsi" barədə bəyanat verib.

Məsələyə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) münasibət bildirib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə deyib ki, özünü "hüquqi dövlət" adlandıran Fransanın bununla Azərbaycanın məhkəmə prosedurlarını heçə sayması qəbuledilməzdir. Fransa tərəfindən səsləndirilən iradların heç bir əsası yoxdur. Məlumdur ki, Azərbaycanda indiyə qədər yalnız Fransa vətəndaşı Martin Rian ötən ilin 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub. Bundan əlavə, digər Fransa vətəndaşı Teo Klerk Bakı Metrosunda törətdiyi əməlinə görə saxlanılıb.

## Teo Klerk Fransada da oxşar əmələ görə cəzalandırılıb

XİN-in rəsmi nümayəndəsinin dediyi kimi, dövlət əmlakına qəsdən ziyan vuran Fransa vətəndaşına, həmçinin digər şəxslərlə bağlı verilən hökm məhkəmənin səlahiyyətindədir və Parisin bu qərarı sual altına almağa ixtiyarı yoxdur. Fransa vətəndaşı, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin əmlakı qəsdən məhvetmə və ya zədələmə maddəsi ilə azadlıqdan məhrum olunub. Qeyd edək ki, bu kimi əməllərə görə Teo Klerk əvvəllər Fransada da cəzalandırılıb və ona cərimə tətbiq olunub. Ümumilikdə, istintaqın və məhkəmənin gəldiyi qənaətə görə, Fransa vətəndaşı cinayətin törədilməsində xüsusi təşəbbüskarlığı və fəallığı ilə seçilib. Həmçinin məhkəmə istintaqı zamanı onun verdiyi ifadələrin işin obyektiv halları ilə uyğunluğu təkzib edilmiyi də məlum olub. Eyni əmələ görə əvvəllər müəyyən məbləğdə cərimə edilsə də, Azərbaycan Respublikasında bu xarakterli əməllərin qeyri-qanuniliyindən məlumatsız olması ilə bağlı Teo Klerkin məhkəməyə verdiyi qeyri-səmimi ifadələri, o cümlədən törətdiyi əməldən peşman olmamasını onun digər iki şəxslə müqayisədə cəzasının daha ağır olmasını şərtləndirən amillər kimi sadalamaq mümkündür.

A.Hacızadə onu da deyib ki, Azərbaycanda məhkəmə hakimiyyətinə və insan hüquqlarına dair iddia səsləndirən, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquq pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyətləri hər kəsə məlumdur. Buna görə də Fransanın bu fəaliyyətindən dərs çıxarması daha faydalı olardı.

## Parisin bu siyasəti özünə ziyandır

Bütövlükdə, rəsmi Parisin Azərbaycana qarşı əsassız iddiası, sözsüz ki, münasibətləri daha da gərginləşdirmək cəhdindən və Ermənistanın xoşuna gəlməkdən başqa bir şey deyil. Fransa bununla məfobiya Fransanın özündə tüğyan edir. Eləcə də Fransa bu gün ədəbiyyatı, mədəniyyəti ilə deyil, kolonist siyasəti, müstəmləkəçiliyi ilə seçilir. Fransanın Azərbaycana qarşı bu ritorikası, həm də mövcud



Makron hökumətinin uğursuzluğunu göstərir. Belə ki, Makron peşəkar siyasətçi olsaydı, anlayardı ki, Cənubi Qafqazda Azərbaycanla münasibətlərə önəm verilməlidir. Çünki Azərbaycan bu regionun lideridir. Amma Makron hakimiyyəti bunun əksini edərək münasibətləri daha da gərginləşdirir. Belə siyasət isə ilk növbədə Fransanın özü üçün ziyanlıdır.

özünü Ermənistana dost kimi göstərərək direktivlərini icra etdirməyə çalışır. Halbuki, eslində, irqi-dini ayrı-seçkilik, o cümlədən isla-

# Vətənə sevgi ailədən başlayır...

## Vətənpərvərlik tərbiyəsi məqsədli təşkil olunmalıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

Gənclərin sağlam, vətənpərvər ruhda böyüməsi dövlətin gənclər siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Bu sahədə həyata keçirilən işlər də çoxşaxəlidir. Etiraf edək ki, gənclərin vətənpərvərlik ruhunda böyüməsinin mühüm istiqamətlərindən birini təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Təhsilin bütün pillələrində, xüsusən də ümumtəhsil məktəblərində bu tərbiyə işinin həyata keçirilməsi üçün imkanlar olduqca genişdir.

Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş dövlətçilik durur. Gənclərdə vətənpərvərliyi formalaşdırmaq üçün bir sıra amillər nəzərə alınmalıdır. Buna misal olaraq Azərbaycan xalqının yaxın və uzaq keçmişi, elm, mədəniyyət, dövlətçilik, siyasət sahəsində əldə etdiyi nailiyyətləri, qəhrəmanlıq tarixi, dövlətin müasir inkişaf göstəricilərini qeyd edə bilərik.

**Müəllimin vəzifəsi təkcə bilik verməklə məhdudlaşmır...**

Mövzunu "Yeni Azərbaycan" a dəyərləndirən təhsil üzrə ekspert Elşən Qafarovun sözlərinə görə, hər bir dövlətin varlığı və gələcəyi, həm də gənclərin tərbiyəsindən asılıdır. Ekspert bildirib ki, gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir: "Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar ilk olaraq məktəbdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, təhsil ocaqlarımızda təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hissləri aşılayır. Məktəbdə müəllimin vəzifəsi təkcə bilik verməklə məhdudlaşmır, onun borcu həmdə vətənə layiqli şəxsiyyət yetişdirməkdir.

Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Çünki Azərbaycanı dünyaya tanıdan dövlət xadimlərinin, ziyalılarının nümunələri də gənc nəsl üçün bir tərbiyə məktəbidir. Bu bir həqiqətdir ki, biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. İgid sərkərdələrimizin şəxsi nümunəsi sübut edir ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq minlərlə qəhrəman,



vətənpərvər yetişdirib".

**Vətənpərvərliyin təbliği təkcə təhsil müəssisələrində aparılmamalıdır**

E.Qafarov qeyd edib ki, insanın ən ali hissi olan vətənpərvərlik anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir: "Yeniyetmə və gənclərimizin bu ruhda tərbiyəsi həmişə təlim-tərbiyə işinin, istər ailədə, istərsə də təhsil ocaqlarında ən mühüm istiqamətlərdən biri olmalıdır. Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. Azərbaycanın 5 min ilə yaxın dövlətçilik tarixində Qarabağ müharibəsi çox əhəmiyyətli və xüsusi yer tutur. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil, eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi Vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Gənclərimizdə vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə, bütöv bir xalqın gələcəyini təmin edən amillərdəndir. Şübhəsiz ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir. Onu da qeyd etmək istəyirəm ki, vətənpərvərliyin təbliği təkcə tərbiyə və təhsil müəssisələrində aparılmamalıdır".

**Uşaqlara vətən sevgisini aşılamaq üçün...**

Ekspertin fikrincə, vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu var: "Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılıb. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulub. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilməlidir".

*Yeganə BAYRAMOVA*

# Avropa İttifaqının demokratiyaya hücum planı...

## Brüsselin ölkəmizə qarşı iddiaları əsassızdır

**Avropa İttifaqının ölkəmizə qarşı qərəzli mövqeyi davam edir. Avropa İttifaqı (Aİ) Avropa Şurası Nazirlər Komitəsinin 11 sentyabr tarixli iclası zamanı İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitənin (İQAK) 3 iyul tarixli ictimai bəyanatına istinad edərək Azərbaycanla bağlı tənqidi çıxış edib. Belə ki, Aİ Azərbaycan hakimiyyəti ilə İQAK arasında davamlı əməkdaşlığın olmamasından "təəssüflənib" və rəsmi Bakını Komitə ilə konstruktiv dialoqu bərpa etməyə "çağırıb". Aİ bəyanatında Azərbaycanda "müstəqil jurnalistlərin, hüquq müdafiəçilərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin həbslərindən narahat" olduğunu da bildirib: "Biz Azərbaycanı şəffaflığı, eləcə də bütün məhbuslar üçün layiqli və təhlükəsiz şəraiti, o cümlədən onların tibbi və müstəqil hüquqi xidmətlərə tam çıxışını təmin etməyə, işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza ilə bağlı ciddi məsələləri həll etməyə çağırırıq".**

### Aİ Fransada etirazçıların öldürülməsini niyə pisləmir?

Əslində isə Avropa İttifaqının səsləndirdiyi iddiaların heç bir əsası yoxdur. Avropa İttifaqı "ortaq beynəlxalq öhdəliklərimizə uyğun olaraq, insan hüquqları və qanunun aliliyi də daxil olmaqla əməkdaşlığımızın bütün istiqamətləri üzrə Azərbaycanla dialoqun davam etdirilməsinə sadiqdir", - deyə bəyan etsə də, bu blokun ayrı-ayrı ölkələrdə baş verən proseslərə müxtəlif yanaşma sərgilədiyi bütün dünyaya məlumdur.

Əgər Avropa İttifaqı müxtəlif ölkələrdə baş verən proseslərə obyektiv mövqe ortaya qoyursa, Fransada "sarı gödəkçəlilər" aksiyasında etirazçıların öldürülməsinə, Parisin neokolonial siyasətinə niyə münasibət bildirmir? Dünya ictimaiyyəti Fransada əhalinin etiraz aksiyalarının hüquq-mühafizə orqanları tərəfindən necə qəddarlıqla dağıdılmasına şahiddir.

Həmçinin Parisin müstəmləkəsi altında olan ərazilərdə, o cümlədən Yeni Kaledoniyada dinc insanların qətli və həbslər zorakılığın bariz nümunəsidir. Eyni zamanda, Aİ strukturlarında rüşvətxorluq və korrupsiya hallarının yayılmasını, islamofobia və müsəlmanlara qarşı hücum faktlarını Brüssel hələ də sükutla qarşılayır.





### XİN: Bu qarayaxma kampaniyasını qətiyyətlə rədd edirik!

Azərbaycanın Xarici İşlər Nazirliyi də məsələyə münasibət bildirib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Avropa İttifaqının yenidən həmin ictimai bəyanata istinadən qərəzli açıqlamalar verməsi qəbuledilməzdir və bu qarayaxma kampaniyasını qətiyyətlə rədd edirik: "Ölkəmizə qarşı bu kimi əsassız bəyanatlarla çıxış etmək əvəzinə, qarşı tərəfin Aİ-yə üzv dövlətlərdə insan hüquqlarının pozulması hallarına diqqət yetirməsini tövsiyə edirik. Aİ tərəfi Fransada "sarı gödəkçəlilər" aksiyasında etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələr, Aİ strukturlarında rüşvətxorluq və korrupsiya hallarının yayılması, İslamofobia və müsəlmanlara qarşı hücum faktları hələ də araşdırılmayıb və Aİ tərəfi bu problemlərə adekvat münasibət bildirməyib".

Həqiqətən də, son illər Avropa İttifaqının bir sıra ölkələrində müsəlmanların təqib və təhqir olunması artıq tendensiyaya çevrilib. Üstəlik, bu hərəkətlər əvvəlcədən planlaşdırılmış qaydada və müəyyən siyasi dəstək əsasında edilir. Bu, həm də onu göstərir ki, Qərbdə, Avropada təkcə siyasi dəyərlər aşınmaya məruz qalmır, eyni zamanda, ideoloji, mənəvi və dini ayrı-seçkilik artır, sivilizasiyaların toqquşması tezisi təbliğ edilir. Arzuolunandır ki, Avropada belə qarşıdurma ssenarilərinə son qoyulsun, islamofobiya, irqçilik, diskriminasiya əvəzinə tolerantlıq, multikulturalizm seçilsin, bəşəri dəyərlər təbliğ və təşviq edilsin. Lakin proseslər göstərir ki, Avropada mövcud olan bu zərərli tendensiyaya son qoyulması hazırkı dönəmdə real görünmür. Çünki bütün bunların fonunda miqrant problemləri artır, demokratiya və insan haqları məsələlərində ziddiyyətlər güclənir.

### Aİ daxilində nə baş verir?

Bu neqativ hallar bir sıra təşkilatların hesabatlarında da əksini tapır. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) son hesabatında da bildirilib ki, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri 2024-cü ildə Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlərdir. Agentlik, miqrasiya təzyiqini nəzərə alaraq, dənizdə axtarış-xilasetmə əməliyyatlarını gücləndirməyi (hesabata əsasən, 2023-cü ildə Aİ ölkələrinə üz tutan 4 mindən çox insan həlak olub) və gəldikdən sonra miqrantlarla ünsiyyət üçün daha təhlükəsiz şərait təmin etməyi tövsiyə edib. FRA, eləcə də dövlətin dinc yığıncaqlar və fikirləri ifadə etmək azadlığı hüququna münasibətdə həddən artıq müdaxiləsini pisləyib və qeyd edib ki, bu, mülki məkana təhdiddir, belə vəziyyət ictimai işlərdə əhəmiyyətli iştirakın mövcud olmaması deməkdir və dezinformasiya ilə birləşdikdə bütün Avropa ölkələrində demokratiyaya xələl gətirir. "27 üzv dövlət, həmçinin vətəndaş cəmiyyətinin müdafiəsini gücləndirməli, antisemitizm və islamofobiyanın artması barədə xəbərdarlıq edərək, həyəcanlı tendensiya kimi təsnif etdikləri irqçilik və dözülməzliyin bütün formaları ilə mübarizə aparmalıdır",-deyə hesabatda vurğulanıb.

Göründüyü kimi, bu hesabatı hansısa uzaq ölkə yox, məhz Aİ-yə aid olan təşkilat bu ilin iyununda açıqlayıb. Brüssel Azərbaycan haqqında əsassız bəyanatlar verməkdənsə, bu hesabatda vurğulanan daxili problemlərini həll etsə daha yaxşı olar.

### Aİ Ermənistanın himayədarı rolunda...

Digər tərəfdən, Aİ həqiqətən insan haqlarının müdafiəçisidirsə, nə üçün Ermənistanda hakimiyyətə qarşı etiraz aksiyalarının zorakılıqla dağıdılmasına susurdu? Məlumdur ki, bu il aprelin sonlarından etibarən bir neçə ay ərzində müxalifət Paşinyan iqtidarına qarşı kütləvi etiraz aksiyaları keçirdi. Bu aksiyaların bir çoxu dağıdıldı və xeyli sayda etirazçı həbs olundu. Bəs o zaman Aİ harada idi və nə üçün Ermənistanda insan haqlarının müdafiəsi məqsədilə bəyanatlar vermədi? Əksinə, bu dövrdə Brüssel Ermənistan hökuməti üçün dəyəri onmilyonlarla avro ölçülən qrant və dəstək paketlərinin həcmini daha da artırdı. Bu, XİN rəsmisi A.Hacızadənin dediyi kimi, Aİ-nin himayədarlıq etdiyi Ermənistanda insanların fundamental hüquq və azadlıqlarının pozulmasına, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda həyatlarını itirməsi hallarına, habelə siyasətçilər və onların ailə üzvlərinə qarşı təqiblərə Aİ-nin biganə qalması da ikili standartların bariz nümunəsidir. Qeyd edilənlər fonunda, Aİ-nin bu cür qərəzli və ədalətsiz bəyanatları Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir. Xüsusilə də, COP29 tədbiri ərəfəsində Azərbaycana qarşı aparılan bu qarayaxma kampaniyası ölkəmizə qarşı qərəzin açıq-aşkar nümunəsidir.

Bütövlükdə, iddiaların əksinə olaraq, Azərbaycanda insanların bütün hüquqları qorunur, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiə olunması ilə yanaşı, müvafiq təcrübənin ümumi qəbul edilmiş beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində əhəmiyyətli irəliləyiş əldə edilməkdədir. Avropa İttifaqının bu barədə iddiaları isə tamamilə əsassızdır.

*Nardar BAYRAMLI*

# "Maliyyə yardımı"nın bölgəyə gətirdiyi bəla..

## USAID vəsaiti artırmaqla İrəvanın silahlanmasına kömək göstərir

### ABŞ bölgədə yeni militarizasiyaya start verdi

ABŞ-ın xarici siryasət kursunun ən mühüm elementlərindən biri qismində çıxış edən "yumşaq güc"dən istifadə yeni dövrdə daha aktual məna kəsb etməyə başlayıb. Xüsusilə, Avrasiyanın mərkəzində yeni siyasi-iqtisadi konfiqurasiyanın qurulması, ortaya çıxan reallıqların fonunda Vaşinqton özünün ənənəvi təsiretmə mexanizmlərini daha da təmərküzləşdirməyə çalışır. "Demokratik yardım" və ya "insan hüquq və azadlıqlarının qorunması prinsiplərinin gücləndirilməsinin maliyyələşdirilməsi" adı altında həyata keçirilən gizli əməliyyatların yeni "libasda" təqdimatı keçirilir.

### Xarici kəşfiyyatın əsl adı - USAID...

Bu məsələdə yenə də həlledici rolu ABŞ-ın nüfuzetmə siyasətinin ən fəal oyunçusu ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) oynayır. Xatırladaq ki, ABŞ-ın xarici yardım proqramlarının yenidən təşkil və idarə edilməsinə məsul olan agentliyin fəaliyyətə başlaması ABŞ Konqresinin 4 sentyabr 1961-ci il Xarici Yardım Aktına əsaslanır. Qurumun təşkilatlanması isə ABŞ xarici siyasət kursunun daha da gücləndirilməsinə söykənir - bir neçə mövcud xarici yardım təşkilatını və proqramlarını bir agentlik altında birləşdirməyə çalışan Prezident Con Kennedi USAID ilə bağlı sərəncam imzaladı. USAID dövlət siyasətində əsas diqqəti uzunmüddətli sosial-iqtisadi inkişafa yönəldən ABŞ-ın ilk xarici yardım təşkilatı kimi fəaliyyətə başladı.

USAID-in proqramları Konqres tərəfindən Xarici Yardım Aktı vasitəsilə tənzimlənir. ABŞ xarici siyasətinin nominal komponenti olan USAID prezidentin, dövlət katibinin və Milli Təhlükəsizlik Şurasının rəhbərliyi altında fəaliyyət göstərir. Təşkilatın 100-dən çox ölkədə, ilk növbədə Afrika, Asiya, Latın Amerikası, Yaxın Şərq və Şərqi Avropada nümayəndəlikləri var. Bu ofislər isə həm də ABŞ-ın həmin region üzrə siyasətinin əsas ocağı sayılır. Apardığı fəaliyyət ifşa edildiyi üçün bəzi ölkələrdən qovulan USAID təmsilçilərinin proqramları ilə bağlı gizlinlər haqqında mütəmadi olaraq dünya mediasında yazılar çap edilir -təsadüfi deyil ki, 2012-ci ilin yayında ALBA ölkələri (Venesuela, Kuba, Ekvador, Boliviya, Nikaraqua, Sent Vinsent və Qrenadin, Dominika, Antiqua və Barbuda) öz üzvlərini USAID-i ölkələrindən çıxarmağa çağırmışdı.

### Gürcüstandan əli çıxan ABŞ Ermənistanı tora saldı...

Görünən budur ki, USAID-in növbəti planları Ermənistana istiqamətlənib. Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıran qurum yeni oyunlarına start verir. Addımın məqsədi USAID-in arxasında duran beynəlxalq şəbəkələrin, mərkəzlərin erməni məsələsini, onların mövcudiyyətini Cənubi Qafqazda davam etdirmək və erməni kartından öz məqsədləri üçün istifadə etmək niyyəti ilə əlaqəlidir.

USAID-in planı ilə bağlı fikirlərə keçməmişdən öncə, xatırladaq ki, yeni dönəmdə "istifadəçi ünvanı" kimi İrəvanın seçilməsi təsadüfi sayıla bilməz. Onsuz da USAID və digər antimilli fondlar ayrı-ayrı region ölkələrindəki xəyanətkar şəbəkələri, milli maraqları satan azlıqları bu və ya digər adlar altında maliyyələşdirirdi. Gürcüstan paytaxtından reallaşdıran ABŞ "agentliyi"nin fəaliyyəti may ayında qəbul edilmiş müvafiq qanunla dalana dirəndi. Amma ABŞ hələ öncədən baş verə biləcək ehtimallara uyğun çıxış yolu hazırlamışdı - bu ilin aprelində keçirilmiş Aİ - ABŞ - Ermənistan üçtərəfli görüşü zamanı "insan hüquqları", "demokratiyanın inkişafına dəstək" kimi gəlişigözəl ənənəvi sözlərlə özünü "İrəvana pərçimləmişdi". Bu, Ermənistanı rahat şəkildə maliyyələşdirmək, hərbiləşdirmək, silahlandlırmaq və bölgə üçün real təhdidə çevirmək planları ilə tam üst-üstə düşür. İşğalçı ölkəyə daha çox maliyyə ayırmaq demokratik inkişafa deyil, yalnız təhlükəsizliyin pozulmasına yönəlik planlara xidmət göstərir. Buna ən bariz nümunə isə ABŞ-ın işğalçı dövlətlə birgə "Eagle Partner" hərbi təliminə qatılmasıdır.




### Vaşinqton niyə İrəvanı "seçir"...

ABŞ-ın öz planlarına alət olaraq Ermənistanı seçməsi isə həm də bu ölkənin yerləşdiyi dislokasiyaya əsaslanır.

- Qərb bu yolla Şərq-Qərb tranziti üzərində Ermənistanın sərhədləri hesabına özü üçün "stansiya" formalaşdırmağı planlaşdırır;
- Yeni iqtisadi düzənin ən əsas logistik marşrutunu nəzarət altında saxlamağa çalışır;
- ABŞ-ın ənənəvi siyasi alətinə çevrilmiş "qarşıdurmalara körüklə" metodundan məhz prosesin nüvəsindən istifadə etməklə Cənubi Qafqazı gərginlik altında saxlamağa niyyətlənir.

Ermənistandan yenə qonşu dövlətlərə qarşı istifadə olunur. Qərbin planın əsas mahiyyəti olan "sülhsüz Qafqaz" prioritetini də məhz Ermənistanın əli ilə "reallışdırır". Hədəf isə açıqdır - ABŞ Ukraynada nail ola bilmədiyi "müharibə cədvəli"nin yeni bölməsi üçün Ermənistanı öz maraqlarına alət edir. Bəlli məsələdir ki, Ermənistanın hərbi və ya siyasi müttəfiq kimi "tanınması" Vaşinqtona heç nə qazandıra bilməz - eyni zamanda, Ermənistanda olmayan demokratiyanın inkişafına necə dəstək göstərmək olar? Amma ABŞ-a gərək olan bəzi məziyyətlər məhz Ermənistanda mövcuddur:

- Ermənistan Azərbaycan, İran və Türkiyə ilə həmsərhəd, Rusiya ilə yaxın ölkədir;
- KTMT-nin bu və ya digər şəkildə üzvüdür (iştirakını dondursa da);
- Avrasiya İqtisadi İttifaqının üzvüdür;
- "Əl oyuncağı" olmaq üçün hər zaman hazırdır.

Beləliklə, bu dövlətdən istifadə etməklə bölgə üçün pronozlaşdırılan bütün laiyhələrə pəl vurmaq olar. ABŞ-ın əsas planı isə Ermənistandan istifadə etməklə Rusiyanı hədəfə almaqdır. Rusiyanın Ermənistandakı hərbi varlığını öz xeyrinə dəyişməklə böyük bir coğrafiyada yeni düzən quracağını düşünən Vaşinqtonun səyi buna hesablanıb. ABŞ həm də düşünür ki, gələcək perspektivdə Rusiya ilə TDT arasındakı əlaqələrin müsbət dinamika ilə artması mühüm alternativ formalaşdırır. Bunun qarşısını almaq üçün isə hazırki məqamda Ermənistanın "xidmətindən" istifadə olunur.



### ABŞ-ın planı - Cənubi Qafqazı yeni plasdarma çevirmək

Bir neçə ay öncə keçirilmiş 5 aprel görüşü öncəsi Azərbaycanın kəskin şəkildə etirazı məhz bugünkü mənzərənin formalaşdırılmasına istiqamətlənmişdi. Məhz 5 aprel görüşündən sonra ABŞ tədricən Ermənistana yerləşməyə başladı - operativ şəkildə İrəvan hava limanından Rusiya sərhədçilərinin çıxarılması, daha sonra ABŞ təyyarələri ilə Ermənistana silah və hərbi heyət göndərilməsi və onların Zəngəzurda yerləşdirilməsinə start verildi. Artıq Rusiyanın 102-ci bazasının ölkədən çıxarılması gündəmə gətirilir. Bu isə yeni dönəmdə Ermənistanın region üçün yarada biləcəyi təhdidin siqnalıdır. Fərqli maraqları bölgəyə daşıyan Paşinyan hakimiyyəti Cənubi Qafqazı açıq plasdarma çevirməyə çalışır.

### Pauer ilə Vardanyanın dostluğu...

USAID-in bu məsələdəki aktiv rolu isə tək Ermənistanla məhdudlaşmır - təsadüfi deyil ki, USAID 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərinin nəticələri ilə bağlı qeyri-adekvat mövqe bildirib. USAID direktoru Samanta Pauer "X" hesabında Azərbaycanın Qarabağ regionunun erməni sakinlərinin Ermənistana miqrasiyasını "məcburi köç" adlandırıb. Samanta Pauerin hazırda Azərbaycanda həbsdə olan Qarabağ separatçılarının nümayəndəsi, milyarder Ruben Vardanyanla olan əlaqələrini Azərbaycan istintaq orqanlarına verdiyi ifadəsində Vardanyan özü etiraf etmişdi - Pauerin fərqli şəxslərin əli ilə Vardanyanın məsuliyyətdən yayındırmaqla bağlı aktiv təbliğat planı da vardı. Məlum maraqları üzündən seperatizmi açıq dəstəkləyən bu qurum və rəhbəri 30 illik erməni işğalı dövründə bir dəfə də olsun Ermənistana qarşı hansısa mənfi fikir işlətməmişdi - beləliklə, yeni dönəmdə Vardanyanın yaxın dostu olan Pauerin rəhbərlik etdiyi təşkilatla rəsmi İrəvan arasında əlaqələrin gücləndirilməsi onu deməyə əsas verir ki, ABŞ USAID-in əli ilə bölgədə yeni qarşıdurmalar da düzənləyə bilər.

*P.İSMAYILOV*

# İslam ölkələri arasında sərhədlər ləğv olunur?

Qonşu İranda iyulun sonlarında dövlət başçısı kimi fəaliyyətə başlayan yeni seçilmiş Prezident Məsud Pezeşkian ilk xarici səfərini İraqa edib. İraq Prezidenti Əbdül Lətif Rəşidlə İran Prezidenti arasında görüş baş tutub. Yüksək səviyyədə aparılan müzakirələrdə prezidentlərin ifadə etdikləri iki fikir xüsusilə müzakirələrə səbəb olub.

## Nə dərəcədə realdır?

İran Prezidenti müsəlman ölkələri arasında Şengen zonasının analogiyası kimi sərhədə nəzarətin ləğv olunmasını təklif edib. Onun sözlərinə görə, bu, xarici sanksiyaların neytrallaşdırılmasına imkan verər. İranla İraq arasında əməkdaşlıqdan danışan Məsud Pezeşkian siyasi, iqtisadi, mədəni və sosial sahədə əməkdaşlığı genişləndirmək imkanlarını araşdırmaq məqsədi ilə xüsusi komissiya yaratmağa çağırıb.

İran Prezidentinin istinad etdiyi Şengen zonası nədir? Şengen zonası ilə bağlı iki saziş imzalanıb. Birinci Şengen müqaviləsi 1985-ci il 14 iyun tarixində beş Avropa ölkəsi arasında bağlanıb. Müqaviləni Fransa, Qərbi Almaniya ilə yanaşı, Benilüks ölkələri olan Belçika, Hollandiya və Lüksemburq imzalayıblar. 1990-cı il 19 iyun tarixində Şengen Müqaviləsinin Tətbiq Konvensiyasının imzalanması ilə razılaşma qüvvəyə minib. Müqavilə Lüksemburq, Fransa və Almaniyanın sərhədlərinin kəsişdiyi yer olan Lüksemburqun Şengen şəhərində imzalandığına görə həmin şəhərin adı ilə adlandırılıb.

Şengen zonası üzrə ikinci müqavilə isə Mos çayının ortasındakı Kraliça Mari-Astrid adlı gəmidə imzalanıb. Şengen zonasına Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Xorvatiya, İspaniya, İsveç, İtaliya, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Rumıniya, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yunanıstan, həmçinin İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç daxildir. Bəhs olunan zona müqaviləyə qoşulan Avropa dövlətində daxili vizasız hərəkəti təmin edən şərti ərazidir. Şengen zonası daxilində hərəkət edənlər üçün sərhəd yoxlanışı tələb olunmur və səyahətçilər vahid ölkə prinsipi ilə hərəkət etmək imkanına malikdirlər. Şengen vizası ilə hər kəs üzv ölkənin hər birinə daxil olaraq bütün zonanı rahatca gəzə bilər. Daxili sərhədlərin nəzarəti ləğv edilib. Lakin təhlükəsizliyi təmin etmək üçün Şengen zonasının hər hansı bir yerində müəyyən nəzarət mümkündür.

Daxili uçuşlar, yol və qatar səyahətləri ölkədaxili səyahətlər kimi idarə olunur. Şengen qısamüddətli vizadır. Bu viza Şengen zonasında maksimum 90 gün qalmağa imkan verir. Uzunmüddətli səfərlər üçün milli vizalar tələb olunur, bu da hər ölkənin öz qanunvericiliyindən asılıdır.

İndi isə İran Prezidenti oxşar modelin İslam dünyasında qurulması ideyasından çıxış edib. Onun bu təklifdən çıxış edərkən ilk növbədə İslam həmrəyliyi ideyasına istinad etdiyi ortadadır. İran Prezidentinin müsəlman ölkələri arasında sərhəd nəzarətinin ləğvini indi gündəmə gətirməsi isə təsadüfi sayıla bilməz. Məlumdur ki, bu ölkə başladığı nüvə proqramına görə ABŞ və digər Qərb dövlətlərinin tətbiq etdikləri sanksiyalar altındadır. Tətbiq olunan qadağalar İranın zəngin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb və bu səbəbdən də ölkənin sosial-iqtisadi durumu pisləşib. Bu gün İranda kəskin maliyyə çatışmazlığı müşahidə edilir. Rəsmi Tehran hətta ən zəruri layihələrin reallaşdırılmasına investisiyalar yönəltməkdə çətinlik çəkir. Bütün bunlar azmış kimi, indi də İran Rusiyaya ballistik raketlər satmaqda günahlandırılır. Artıq ABŞ və digər Qərb dövlətləri tərəfindən rəsmi Tehrana qarşı yeni sanksiyaların anonsu edilib. Yeni sanksiyalar paketinin tətbiqindən sonra İranda iqtisadi-sosial vəziyyətin daha da ağırlaşması qaçılmaz hala gələcək. Bunu düşünən Məsud Pezeşkian çıxış yolunu müsəlman ölkələri ilə ticarət əlaqələrini genişləndirməkdə görür. Onun qənaətinə görə, İslam dünyasında Şengen zonasının yaradılması İran və digər müsəlman ölkələri üçün Qərbdən gələn sanksiyaların fəsadlarından qorunmaq imkanı yaradacaq.

Sərhədlər üzərində nəzarətin aradan qaldırılmasını şərtləndirən digər səbəblər də göstərilir. Əminlik ifadə olunur ki, belə bir sərbəst zonanın yaradılması müsəlman ölkələri arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişafına müsbət təsir göstərəcək.

Əlbəttə, İslam dünyasında Şengen zonasının yaradılması ideyası özlüyündə kifayət qədər cəlbedicidir. Ancaq bu ideyanın yaxın perspektivdə reallaşacağı mümkünsüz görünür ki, bunu da şərtləndirən bir sıra amilləri sadalamaq mümkündür. İlk növbədə müsəlman ölkələri arasında həmrəyliyin zəif və yaxud heç olmadığı reallığın göz önünə gətirmək lazımdır. Elə İranın özü də İslam dövləti olmasına rəğmən, cəmiyyətləri bu dinin daşıyıcısı olan ölkələrə münasibətdə qardaşlıqdan, həmrəylikdən çox uzaqdır. Hazırda ayrı-ayrı müsəlman ölkələri arasında mövcud olan siyasi-hərbi gərginliklər də sərhədlər üzərində nəzarətin aradan qaldırılması ideyasına inamı sıfıra endirən digər bir mühüm amildir. Qarşılıqlı anlaşma üçün əvvəlcə bir-birinə siyasi-iqtisadi-hərbi təzyiqlər aradan qaldırılmalı, münasibətlər sonlanmalıdır. M.Pezeşkianın ideyasını perspektivsiz edəcək digər mühüm səbəb müsəlman ölkələrinin bir-birindən kəskin fərqlənən inkişaf səviyyəsi və daxili təhlükəsizlik məsələləridir. Açıq demək lazımdır ki, bu gün müsəlman ölkələri həm də daxili təhdidlərlə üz-üzədir. Kriminogen durum arzuolunmazdır, narkotik ticarəti geniş vüsət alıb, işsizlik tüğyan edir və s. Bu kimi reallıqlar fonunda müsəlman ölkələri arasında sərhədlər üzərində nəzarətin götürülməsi ən azından yaxın perspektivdə mümkünsüz olacaq.



## Qarşılıqlı ticarətdə dollardan imtina çağırışı

Avropa İttifaqı (Aİ) məkanında Şengen zonasının digər bir üstünlüyü burada ümumi valyutadan - Avrodan istifadə edilməsidir. Bağdadda yüksək səviyyədə aparılan müzakirələrdə İraq Prezidenti Əbdül-Lətif Rəşid iki ölkə arasında ticarət əməliyyatında hesablaşmada ABŞ dollarından imtina etməyə çağırıb. Ekspertlər yaxın perspektivdə bu ideyanın da reallaşacağının mümkün olmayacağını düşünürlər. Mövzu ilə bağlı "Yeni Azərbaycan"a danışan 6-cı çağırış Milli Məclisin deputatı Vüqar Bayramov bildirib: "Dollardan imtina məsələsi uzun müddətdir ki, fərqli regionlarda və təşkilatlarda müzakirələrə çıxarılır. İndiyədək bir sıra ölkələr və qurumlar öz aralarında dollarsız ticarət aparmağa çalışıblar. Eyni zamanda, bu məsələ zaman-zaman region dövlətlərində də gündəmə gəlir. Ancaq hələlik regional səviyyədə və dünya praktikasında dollardan imtina edib ticarətin milli valyutalarda aparılması praktikası olduqca azdır. Demək olar ki, bütün ölkələrin dönərli valyutalara, o cümlədən də ABŞ dollarına ehtiyacı var. Hazırda dünyada yığımların 67 faizi dollarla edilir. Dollara tələbatın artması ölkələr üçün valyuta yığımları, strateji güc baxımından da vacib hesab edilir. İslam ölkələri arasında da fərqli dönəmlərdə dollardan imtina edilməsi və qarşılıqlı ticarətin milli valyutalarla həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb. Bağdada aparılan müzakirələrdə gündəmə gətirilən bu ideya heç də yeni təklif kimi dəyərləndirilməməlidir. Ancaq mövcud reallıqlara diqqət yetirsək, nəzərə alsaq ki, beynəlxalq valyuta sistemi, eyni zamanda, dollara tələbatın yüksək olması və digər reallıqlar böyük həcmli əməliyyatların dollarsız həyata keçirilməsinə praktiki cəhətdən imkan vermir. Buna görə də İslam ölkələrinin dollardan imtina etmələri, xarici ticarətlərini milli valyutalarda aparmaları mümkün görünmür . Ancaq gələcəkdə xüsusən də səbət valyutalarının mövqeyinin güclənməsi digər valyutalarda xarici ticarətin reallaşdırılmasına gətirib çıxara bilər".

**Mübariz FEYİZLİ**

# Tarixdə ilk dəfə...

## Münhen Təhlükəsizlik Konfransına qeyri-alman sədrlik edəcək

XXI əsrin ikinci onilliyi qlobal müstəvidə kataklizmlərlə yadda qaldı. Uzun müddət davam edən pandemiya bəlası, siyasi gərginliklər, Avropanın mərkəzində başlayan müharibə beynəlxalq münasibətlər sistemino özünün mənfi təzahürləri ilə təsir etdi - xüsusilə, illərdir özünü dünya siyasətinin qrandı hesab edən "köhnə qitə"nin bu gərginlikləri idarə edə bilməməsi, baş verənlərin qarşısında acizliyi ön plana sıçradı. Bir sıra siyasi mütəxəssislər Avropanın siyasi çöküşünün post-Merkel dövründən, daha doğrusu, Fransanın köhnə qitənin lideri vəzifəsinə qeyri-rəsmi "yerləşməsindən" başladığını iddia edir. Amma həqiqət budur ki, yaşadığımız əsrin başlanğıcından etibarən ABŞ-ın start verdiyi vahid qütb olmaq planında müəyyən bir müddətdən sonra Avropa da istisna olunurdu - gedişat və proseslər bunu deməyə əsas verir. Xüsusilə, Vaşinqtonun Avropada müharibənin bitməməsi üçün bütün gücünü səfərbər etməsi, öz avropalı müttəfiqlərini enerji böhranı, iqtisadi krizislə üz-üzə qoyması köhnə qitəni gücdən salıb. Təbii ki, ortada kı ən mühüm məqamlardan biri də təhlükəsizlik məsələsidir - kollektiv Qərbin əsas təhlükəsizlik çətirinin Şimali Atlantika Müqaviləsi Təşkilatı olduğunu diqqətə alsaq, qurum daxilindəki "qan dəyişikliyi"nin də proseslərə təsirsiz ötüşmədiyini görə bilərik.

## Yens Stoltenberq Brüsseli Münhenə "dəyişir"...

## Şimal Alyansının 75 illik tarixinin 13-cü baş katibi...

Artıq 75 ildir ki, qlobal siyasi səhnənin ən mühüm elementlərindən birinə çevrilmiş Şimali Atlantika Alyansı son qəbulların ardından 32 dövlətin hərbi birliyi qismində çıxış edir. Baş ofisi Brüssel şəhərində yerləşən NATO Belçika, Birləşmiş Krallıq, Fransa, Hollandiya və Lüksemburq tərəfindən 17 mart 1948-ci ildə soyuq müharibənin fərqli qütbü kimi yaradılsa da, ötən illərdə dünyanın hərb gücü kimi əsas istinad nöqtəsi oldu. Şimal Alyansı əsasnaməsində də qeyd edildiyi kimi, "sülhün qorunmasını və azadlıqların müdafiəsini siyasi həmrəylik yolu ilə təmin edən, üzvlərinə qarşı yönəlmiş istənilən aqressiya formalarının dəf edilməsini, lazım gəldikdə isə hərbi gücdən istifadə edilməsini nəzərdə tutan müstəqil dövlətlərin hərbi ittifaqı" sayılsa da, günümüzün real siyasi proseslərinin də ən mühüm yönvericilərindən biridir. Qurumda bütün qərarlar hər bir üzv ölkənin maraqları nəzərə alınmaqla, konsensus əsasında qəbul edilsə də, maliyyələşmənin 80 faizi qeyri-Avropa məkanının "payındadır". Şimali Atlantika Şurasının iclaslarına isə NATO-nun baş katibi sədrlik edir. NATO-nun Baş katibinin səsvermə hüququ yoxdur, çünki əks halda Baş katib tərəfindən təmsil olunan üzv ölkələrdən biri iki səsə malik olar və NATO-da isə hər bir üzv ölkə bir və bərabər səs hüququna malikdir. NATO-nun baş katibi üzv dövlətlər tərəfindən 4 il müddətinə təyin edilir. Hazırkı sədr də daxil olmaqla, bu günə qədər NATO-nun, ümumilikdə, 13 baş katibi olub. Hazırda Alyans sədr dəyişikliyinin astanasındadır - bu vəzifəni 2014-cü ildən yerinə yetirən Norveçin keçmiş baş naziri Yens Stoltenberqi Niderlandın keçmiş baş naziri Mark Rutten əvəzləyəcək. Dəyişiklik oktyabrın 1-də reallaşacaq.

## 4 almandan sonra ilk norveçli...

16 gündən sonra "eks" statusu daşıyacaq NATO-nun Baş katibi Yens Stoltenberq isə Münhen Təhlükəsizlik Konfransının yeni sədri olacaq. Bu barədə "Politico" məlumat yayıb. Bildirilib ki, Stoltenberq 2025-ci ilin fevralından etibarən Münhen Təhlükəsizlik Konfransının sədri vəzifəsini icra edəcək. Qeyd edək ki, 2022-ci ildən bu vəzifəni daşıyan Kristof Heusgen sədrliyi tərk edəcək.

Adıçəkilən konfransın əsası 1963-cü ilin fevralında qoyulub - Almaniyanın Münhen şəhərində keçirilən illik beynəlxalq konfransda siyasətçilər, hərbçilər və biznes nümayəndələri, qeyri-hökumət təşkilatları və təhlükəsizlik ekspertləri diplomatik və protokol tələblərindən kənar mövcud təhlükəsizlik məsələlərini müzakirə ediblər. Konfransın əsas məqsədi xarici siyasət, təhlükəsizlik və müdafiə siyasətinin aktual məsələlərini müzakirə etməkdir. Münhen Konfransı bu tip məsələlər üzrə dünyada ən böyük konfrans sayılır - tədbirin təşkilatçısı isə qeyri-kommersiya təşkilatı olan Münhen Təhlükəsizlik Konfransı Fondudur (die Stiftung Münchner Sicherheitskonferenz (gemeinnützige) GmbH).

İlk 30 ildə forumun iştirakçıları əsasən yalnız NATO dövlətlərinin hərbi və siyasi liderləri, politoloqlar və media nümayəndələri olub. 1990-cı illərdən etibarən isə artıq konfransda Rusiya və Şərqi Avropanın digər ölkələrinin, o cümlədən Çinin, Hindistanın və Yaponiyanın nümayəndələri də iştirak edirdilər.

1998-ci ilə qədər konfransa rəhbərliyi təsisçisi, alman naşiri Evald-Henrix fon Kleyst-Şmençin edib. 1999-cu ildən bu vəzifəni Almaniyanın ən məşhur kanslerlərindən biri olmuş Helmut Kolun xarici işlər və müdafiə məsələləri üzrə keçmiş müşaviri Horst Telçik icra edib. 2009-cu ildən 2022-ci ilə kimi alman diplomatı Volfqanq İşinqer, 2022-ci ildən isə Kristof Heusgen konfransa rəhbərlik edir. Qeyd edildiyi kimi, Heusgenin xələfi isə NATO Baş katibi Yens Stoltenberq olacaq.



## Azərbaycanın da iştirakçısı olduğu konfrans...

Vurğulandığı kimi, Münhen Təhlükəsizlik Konfransı bu istiqamətdə keçirilən tədbirlər içində ən məşhurudur. Bu konfrans Avropa, eləcə də qlobal miqyasda təhlükəsizlik tədbirlərini nəzərdən keçirir. Konfransda bir sıra dövlətlərin başçılarının, siyasətçilərin aktual problemlərin həlli ilə bağlı mülahizələri dinlənilir, yekun sənədlər qəbul edilir. Konfrans bütövlükdə, "təhlükəsiz dünya" ideyasının reallaşdırılmasına əhəmiyyətli töhfələr verir. Qeyd edək ki, Azərbaycan dövləti də konfransın fəxri qonaqları sırasında təmsil olunur. 2020-ci ildə baş tutan Münhen Təhlükəsizlik Konfransı isə Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyıb - müxtəlif beynəlxalq tribunalardan səmərəli istifadə etməklə erməni yalanlarını ifşa edən, reallıqları dünya ictimaiyyətinin diqqətinə sistemli şəkildə və dolğun surətdə çatdıran Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 15 fevralında Münhen Təhlükəsizlik Konfransında əldə etdiyi növbəti mühüm diplomatik qələbə ilə zəfərimizin beynəlxalq arenadakı əsasını qoydu. Münhen qələbəsi Azərbaycanın hücum diplomatiyasının mühüm tərkib hissəsi və real nəticəsi idi. Sözügedən konfrans zamanı Prezident İlham Əliyev Azərbaycanın prinsipial mövqeyini, tarixi faktlar və reallıqları qətiyyətlə ifadə etdi. İlham Əliyev Qarabağın Azərbaycan ərazisi olduğunu həm tarixi, həm beynəlxalq hüquq müstəvisində, həm də beynəlxalq birliyin mövqeyi fonunda dünya ictimaiyyətinə çatdırdı, Ermənistanın baş naziri bu reallığa qarşı heç bir əks-arqument ortaya qoya bilmədi. Azərbaycan Prezidentinin Qarabağın Azərbaycana məxsus olması və münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair ifadə etdiyi siyasi-hüquqi gerçəkliklərin qarşısında Paşinyan tutarlı heç bir fikir səsləndirə bilmədi, hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoymadı. Beləliklə, Paşinyan Prezident İlham Əliyev tərəfindən səsləndirilən tarixi həqiqətlər və təqdim edilən faktlar qarşısında aciz durumda qaldı, onun absurd iddiaları dövlətimizin başçısı tərəfindən darmadağın edildi.

## NATO-nun "Stoltenberq erası"...

O ki qaldı, NATO-da davam etmiş 10 illik "Stoltenberq erası"na, bununla da bağlı yanaşmalar birmənalı deyil. Onun sədrliyi dövründə 2017-ci ildə "yeddinci genişlənmə" proqramı çərçivəsində Monteneqro, 2020-ci ildə "səkkizinci genişlənmə" proqramı çərçivəsində Şimali Makedoniya, 2023-cü ildə "doqquzuncu genişlənmə" proqramı çərçivəsində Finlandiya və bu ilin martında isə İsveç Alyansa tamhüquqlu üzv seçilib.

Siyasi mütəxəssislər yekdil olaraq Stoltenberq dövrünü NATO-nun XXI əsr üçün ən dinamik siyasi-hərbi dövrü kimi dəyərləndirirlər - xüsusilə, Yaxın və Orta Şərq, Mərkəzi Avropa kontingenti ilə bağlı kritik qərarların verilməsi, genişmiqyaslı müharibələrdə bu və ya digər şəkildə yer alma, ən əsası isə silahların və NATO qoşunlarının təkmil vəziyyətə gətirilməsi məhz Stoltenberqin xidmətləridir. Stoltenberq həm də Alyansın yaxın əməkdaşlıq etdiyi ölkələrə qarşı münasibətdə müsbət tendensiyanı qoruyub saxlamağı bacarırdı. Hazırkı Baş katib Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə tənzimlənməsinə "soyuq" yanaşsa da, vəziyyətin faciəvi duruma almaması üçün bütün lazımi humanitar addımların atılmasının tərəfdarı kimi çıxış edirdi. Xatırladaq ki, Stoltenberq NATO Baş katibi qismində bu ilin martında Bakıya səfər edib...

**P.SADAYOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# İstanbul Boğazının incisi- Ortaköy Məscidi

Rəngarəng bazarı, canlı atmosferi, gözoxşayan işıqları ilə İstanbulun, Beşiktaşın ən gözəl səmtlərindən biridir Ortaköy. İstanbul boğazının suları ilə qucaqlaşan küçələri, İskələ meydanı, kumpir dükanları, imisti insanları ilə unudulmazdır.

Ortaköyda gəziləcək, görüləcək məkanlar sırasında maraqla izlədiyimiz Türkiyə istehsalı filmlərdə, seriallarda, eləcə də İstanbul mövzulu bütün fotolarda qarşımıza çıxan və möhtəşəm memarlığı ilə diqqət çəkən, daha çox Ortaköy Məscidi kimi bilinsə də, əsl adı Böyük Məcidiyyə Məscidi olan tarixi abidə görənləri özünə heyran qoyur.

Sahilin düz kənarında, suların qoynunda, sanki suyun üstündə yerləşibmiş kimi görünən məscid həm Ortaköyün, həm də İstanbulun önəmli simvollarından birinə çevrilib.

Məscid Sultan Əbdülməcidin sifarişi ilə 1853-cü ildə memar Niqoqos Balyan tərəfindən inşa edilib. Bina 1721-ci ildə vəzir İbrahim paşanın kürəkəni Mahmud ağanın tikdirdiyi məscidin üstündə tikilib.

Bütün sultan məscidlərində olduğu kimi bu məscid də iki hissədən ibarətdir: harim və hünkar bölmələri. Boğazın dəyişən işıqlarını məscidə gətirmək üçün geniş və hündür pəncərələr düzəldilib ki, bu da məscidə ayrı gözəllik və özünəməxsusluq verir.

Pilləkənlərlə çıxmaq mümkün olan binanın tək eyvanlı iki minarəsi var. Divarları ağ yonma daşdan hörülüb. Tək günbəzin divarları çəhrayı mozaikadandır. Mehrab mozaika və mərmərdən, minbər isə porfir örtüklü mərmərdən hazırlanıb.

Olduqca zərif memarlıq nümunəsi olan məscid 1862 və 1866-cı illərdə təmir edilib. Ancaq 1894-cü il zəlzələsi tarixi abidəyə çox böyük zərər verib. Buna görə də 1909-cu ildə yenidən təmir etdirilib. 1960-cı illərdə binada yaranan çatlar səbəbindən yenidən bərpa işləri başladılıb və zəmin möhkəmləndirilərək günbəz yenilənib. Bu təmir səbəbindən ibadətə bağlanan məscid 1969-cu ildə yenidən müsəlman sakinlərin ixtiyarına verilib. Təəssüf ki, möhtəşəm memarlıq nümunəsi yenə də qəzavüqədərdən yan ötüşə bilməyib. Bu dəfə yanğın tarixi məscidin varlığına qəsd etməyə çalışıb. Amma 1984-cü ildə baş verən bu böyük fəlakət binanı qismən dağıtsa da, yenidən bərpa edilərək tariximizə qazandırılıb.



Vəqflər Ümumi Müdirliyi tərəfindən 2011-2014-cü illər arasında təxminən üç il davam edən bərpa işləri 6 iyun 2014-cü ildə tamamlanan məscid yenidən ibadət və ziyarətlərə açılıb.

Ortaköy Məscidinin düz yanında daha bir möhtəşəm abidə öz əzəməti ilə insanın gözünü qamaşdırır. Əsma Sultan İmarəti də buranın görülməyə dəyər memarlıq nümunələrindən biridir. İmarət Sultan Əbdüləzizin qızı Əsma Sultan üçün Çərkəz Mehmet Paşa ilə evləndikdən sonra toy hədiyyəsi kimi inşa edilib.

1848-ci ildə Əsma Sultanın ölümündən sonra müxtəlif dövrlərdə Sultan II Əbdüləzizin qızlarına verilib, 1915-1922-ci illər arasında yunan məktəbi və anbar kimi istifadə edilib. 1950-ci illərdə çox əl dəyişdirən bina 1975-ci ildə güclü yanğına məruz qalıb.

1990-ci illərdə "The Marmara Collection" tərəfindən satin alınan bina günümüzdə toy, tədbir kimi mərasimlərin keçirildiyi məkan olaraq istifadə edilir.

İstanbulun qaranlıq gecəsində insanın ruhuna həzin bir türkü pıçıldayan Boğazın sularının qoynunda uzaqdan Ortaköy Məscidini və onun "qulaq dostu" olan Əsma Sultan İmarətini seyr etmək ayrı bir həzdir. Keçmişlə müasirliyin, təbiətlə insan əlinin zəhmətinin ortaq möcüzəsi olan bu möhtəşəm abidə bir daha türkün qədim və şanlı tarixi ilə ürəkdən, bütün səmimiyyəti ilə öyünmək səbəbi olduğunu sübut edir.

*Şahanə MÜŞFİQ*



# "Səni axtarıram", "Bağışla" ilə sevilən...

## Aslan Qəhrəmanlının doğum günüdür

Bu gün yazıçı, dramaturq Aslan Qəhrəmanlının doğulduğu gündür. Tamamilə fərqli sahədə təhsil almağına baxmayaraq Azərbaycan elminə və ədəbiyyatına əvəzsiz tövhələr bəxş etmiş yazıçının 85 illik yubileyidir.

Aslan Qəhrəmanlı 1939-cu il sentyabr ayının 14-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil alıb.

Əmək fəaliyyətinə 1961-ci ildə Elmlər Akademiyasının Hesablama Mərkəzində başlayıb, həmin mərkəzin bazası əsasında kibernetika institutu yaradılandan sonra orada müxtəlif vəzifələrdə elmi-tədqiqatla məşğul olub. 1972-1975-ci illərdə İttifaq NeftMaş Birliyinin xüsusi konstruktor bürosunda laboratoriya rəisi vəzifəsində çalışıb. 1975-1977-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Tətbiqi riyaziyyat kafedrasında baş müəllim işləyib. Bir müddət Rostov Dəmiryol Mühəndisləri İnstitutunun Bakı filialında baş müəllim işlədikdən sonra yenidən indiki Azərbaycan Dövlət Neft Akademiyasında pedaqoji fəaliyyətini davam etdirib. 1980-ci ildən 2007-ci ilə qədər həmin Akademiyada əvvəlcə baş müəllim, sonra dosent vəzifəsində çalışıb. 2007-ci ilin sentyabrından Azərbaycan Universitetinə keçmiş, bu universitetin Riyaziyyat və informatika kafedrasının dosenti, 2011-ci ilin fevralından 2012-ci ilin iyununa qədər rektoru olub.

Aslan Qəhrəmanlı 2003-cü ildən nəşrə başlamış "Azərbaycanın Vergi Xəbərləri" jurnalının həmin ildən 2010-cu ilə qədər baş redaktoru olub.

Yazıçı kimi özünü 1967-ci ildə "Gənclik" nəşriyyatında çıxan "Gənc qələmlər" almanaxında dərc olunmuş "Dağların mahnısı" adlı ilk hekayəsi ilə sınayan A.Qəhrəmanlı həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edib. 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. "Spektr", "Döngə", "Burulğan", "Səni axtarıram", "Bağışla" və sair telepyesləri Azərbaycan televiziyasında dəfələrlə nümayiş etdirilib. Azərbaycan televiziyasının "Müasirlərimiz" devizi ilə 1986-cı ildə keçirdiyi ən yaxşı televiziya pyesləri müsabiqəsində "Ürək" pyesi 2-ci mükafata layiq görülüb (birinci mükafat verilməyib).

Onun radio üçün yazdığı "Daşa dönmüşlər şəhəri", "Şeytan", "Ceyran əfsanəsi", "Tutuquşu" və sair kimi 13 nağıl-pyesi Azərbaycan radiosu ilə səsləndirilib və böyük dinləyici sevgisi qazanıb.

Aslan Qəhrəmanlı 2010-cu ildə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)" yubiley medalı ilə təltif edilib.

Görkəmli yazıçı 20 yanvar 2014-cü ildə ağır xəstəlikdən vəfat edib və dünyaya göz açdığı Ağstafa rayonunda torpağa tapşırılıb.

*Şahanə MÜŞFİQ*



# Mehmet Emin Bay: Köçəri Oyunları türk xalqlarını yaxınlaşdırır




Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən V Ümumdünya Köçəri Oyunları bütün türk ölkələri və xalqları üçün vacibdir, çünki bu tədbir insanlar, o cümlədən idmançılar arasında daha sıx təmasların qurulmasına xidmət edir.

Bu barədə AZƏRTAC-a Türkiyənin Ənənəvi Güləş Federasiyasının nümayəndəsi Mehmet Emin Bay bildirib. O əlavə edib: "Azərbaycan istisna olmaqla, biz əvvəllər digər qardaş xalqlarımızı yaxından tanımırdıq. Azərbaycan bizim üçün ikinci vətəndir, biz onu ölkəmizdən ayırmırıq. Köçəri Oyunları sayəsində Qazaxıstan, Qırğızıstan kimi türk ölkələri ilə daha yaxından tanış olduq".

Mehmet Emin Bayın sözlərinə görə, Azərbaycan idmançıları bu yarışlarda yüksək peşəkarlıq nümunəsi göstəriblər. O qeyd edib: "Rəqiblərin güclü olmasına baxmayaraq, idmançılarınızın qələbə şansı yüksək idi. Azərbaycan komandası müəyyən çətinliklərlə üzləşsə də, bir sıra medallar qazanıb. Məsələn, böyük ümidlər bəslənən Azərbaycan idmançılarından biri zədələnərək mübarizəni davam etdirə bilməyib". Federasiya rəhbəri belə bir hadisənin Türkiyə komandasının da başına gəldiyini xatırladıb.

Azərbaycanın beynəlxalq yarışlara həmişə ciddi hazırlaşdığını qeyd edən Mehmet Emin Bay vurğulayıb: "2022-ci ildə Oyunlar Türkiyənin İznik vilayətində keçirilirdi, həmin yarışlarda azərbaycanlı idmançılar yüksək nəticələr göstərdi və çoxlu sayda medal qazana bildilər".

Qeyd edək ki, sentyabrın 13-də başa çatacaq V Ümumdünya Köçəri Oyunlarında Azərbaycan 8 idman növü üzrə 54 idmançı ilə təmsil olunur.

# İdmançılarımız Ümumdünya Köçəri Oyunlarını 7 medalla başa vurublar




Qazaxıstanın paytaxtı Astanada keçirilən V Ümumdünya Köçəri Oyunları başa çatıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan 8 idman növü üzrə 54 idmançı ilə təmsil olunduğu yarışda ümumilikdə 7 medal qazanıb.

Azərbaycan idmançıları ən böyük uğuru qazaq güləşində əldə ediblər. Bu növdə dörd medal qazanılıb: 2 gümüş və 2 bürünc. Alış güləşində medalların sayı daha iki bürünclə artıb. Yeddinci medal, o da bürünc olmaqla, aba güləşi yarışında əldə edilib.

V Ümumdünya Köçəri Oyunları 89 ölkədən təxminən 2500 iştirakçını bir araya gətirərək, idman və köçəri mədəniyyəti ənənələrinin bayramına çevrilib.

Oyunların proqramına 21 idman növü üzrə yarışlar daxil idi. İdman yarışları ilə yanaşı, etnoaulda hər gün təxminən 100 mədəni tədbir keçirilib və qonaqlar köçəri xalqların zəngin irsi ilə tanış olublar.

VI Ümumdünya Köçəri Oyunları 2026-cı ildə Qırğızıstanda keçiriləcək.

# Şəhid ailələri və qazilər Formula 1 yarışlarının fəxri qonaqlarıdır




Hər il 30 mindən çox azarkeşin canlı izlədiyi Formula 1 Azərbaycan Qran-Prisi yenidən yarış həvəskarlarını tribunalarda qarşılayır.

Bakı Şəhər Halqasından (BŞH) AZƏRTAC-a verilən məlumata görə, ötən il olduğu kimi bu il də möhtəşəm Bakı yarışına Vətən müharibəsində xalqımıza tarixi Qələbəni bəxş edən qəhrəman şəhidlərimizin ailə üzvləri və qazilərimiz fəxri qonaq qismində dəvət olunublar. Onlar "Formula 1 Qatar Aiways Azərbaycan Qran Prisi 2024"ü 3 gün ərzində canlı izləyə biləcəklər.

Artıq üçüncü ildir ki, bu möhtəşəm idman tədbirinə dəvət olunan fəxri qonaqlarımız builki yarışı Azneft və Qız qalası tribunalarından izləyir.

44 günlük Vətən müharibəsi dövründə şücaət göstərmiş qəhrəman şəhidlərimizin ailə üzvlərini və qazilərimizi mötəbər idman yarışında, Bakı Şəhər Halqası azarkeşləri sırasında görmək qürurvericidir.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisinə sentyabrın 15-də yekun vurulacaq.

# Azərbaycan Basketbol Liqasının start tarixi və yeni reqlamenti açıqlanıb

Azərbaycan Basketbol Liqasında (ABL) 2024/2025-ci illər mövsümü oktyabrın 18-də başlayacaq.

AZƏRTAC xəbər verir ki, ötən ildən fərqli olaraq, basketbol üzrə 30-cu Azərbaycan çempionatında 12 komanda çempionluq uğrunda mübarizə aparacaq.

Bu mövsümdən etibarən, "Cəlilabad" klubu "Quba" ilə əvəzlənəcək, "Xəzri" isə "Naxçıvan" BK adlandırılacaq, "Xırdalan" isə "Abşeron" BK adı ilə fəaliyyət göstərəcək. Eyni zamanda, yeni yaranmış "Ordu" və "Lənkəran" klubları da çempionatda mübarizəyə qoşulacaq.

Yeni reqlamentə əsasən, çempionatın oyunları 20 turdan ibarət 4 dövrəli sistem üzrə keçiriləcək. Oyun zamanı meydançada 4 əcnəbi və mütləq şəkildə 1 yerli basketbolçunun iştirak etməsi əsas şərt olacaq. Müntəzəm mövsümün oyunları A və B qruplarında baş tutacaq. Ötən çempionatın nəticələrinə əsasən, müntəzəm mövsümü ilk altılıqda bitirmiş, yəni pley-offa vəsiqə qazanmış klublar A, digər dörd komanda və debütantlar B qrupunda mübarizə aparacaqlar.

A qrupu: "Sabah" BK, "Naxçıvan" BK, NTD Bakı, "Abşeron" BK, "Neftçi" İK, "Sərhədçi" PİK;

B qrupu: "Sumqayıt" BK, "Gəncə" BK, "Quba" BK, "Şəki" BK, "Ordu" İK, "Lənkəran" BK.

Müntəzəm mövsümdə A qrupunu ilk 3 sırada tamamlayan klublarla yanaşı, B qrupunu lider bitirən komanda 1/4 final mərhələsinə vəsiqə qazanacaq. Qruplarda digər yerləri



tutmuş komandalar isə 1/8 final mərhələsində üz-üzə gələcəklər. Bu raundda ən tez iki qələbə qazanmış klublar 1/4 finala vəsiqə qazanacaqlar. Həm 1/4 final, həm də yarımfinal seriyaları 2 qələbəyə qədər davam edəcək. Final seriyasında isə ən tez 4 qələbə qazanmış klub Azərbaycan Basketbol Liqasının (ABL) qalibi olacaq.

Qeyd edək ki, klubların pley-off mərhələsində göstərdikləri uğurlu və ya uğursuz nəticələrə əsasən, növbəti mövsümdən onların A, yoxsa B qrupunda iştirak edəcəyi müəyyənləşəcək.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4936**
**Sifariş: 2092**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI